# Ağdamda kütləvi məzarlıq aşkarlandı

## Onların 1992-ci ildə öldürülərək basdırılması ehtimal olunur



**Azad olunmuş ərazilərdə daha bir kütləvi məzarlıq aşkarlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, noyabrın 22-də daxil olmuş məlumat əsasında polis, prokurorluq və təhlükəsizlik xidməti əməkdaşlarının iştirakı ilə işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində aparılan qazıntılar zamanı oradan insan sümükləri aşkar olunub. Onların 1992-ci ildə öldürülərək basdırılması ehtimal olunur.

Sümüklərin kimə aid olması müəyyənləşdirilməsi üçün məhkəmə-tibbi ekspertizasına təhvil verilib.

# Azərbaycan XİN İsrailə başsağlığı verib



**Azərbaycan Xarici İşlər Nazirliyi İsraildə baş verən terror aktı ilə bağlı başsağlığı verib.**

Bu barədə Azərbaycan XİN "Twitter"də paylaşım edib.

"Qurbanın yaxınlarına başsağlığı verir və yaralıların tezliklə sağalmasını diləyirik. Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir", XİN bildirib.

*Xatırladaq ki, dünən Yerusəlim şəhərində törədilən terror aktı zamanı 1 nəfər ölüb, 22 nəfər yaralanıb.*


❐ № 214 (5735), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 noyabr 2022-ci il (cümə axşamı)







# Sağlamlıq durumu imkan versə, bu gün əməliyyat olunacaq

## TƏBİB Səbuhi Məmmədlinin səhhəti ilə bağlı açıqlama yayıb

**Jurnalist Səbuhi Məmmədlinin səhhəti istər TƏBİB rəhbərliyinin, istərsə də indiyədək müalicə aldığı tibb müəssisələrinin administrativ və tibbi heyətinin diqqətində olub.**

"Şərq" xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.

Qeyd olunub ki, o, indiyədək TƏBİB-in tabeliyindəki tibb müəssisələrində qeydə alınan xəstəlikləri üzrə müalicə kursu keçib. Respublika Klinik Xəstəxanasında, akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində, Nərimanov Tibb Mərkəzində, M. Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasında müalicələr alıb.

(səh.2)




# "Azərbaycan sadiq tərəfdaşdır"

## Aleksandar Vuçiç: "Prezident İlham Əliyevin sözü yetərlidir, biz onun sözünə inanırıq"

**"Azərbaycanla Serbiya sözün əsl mənasında strateji tərəfdaşdırlar". Bunu Prezident İlham Əliyev səfərdə olduğu Serbiyada, Prezident Aleksandar Vuçiçlə mətbuata bəyanatlarla çıxışı zamanı deyib. Dövlət başçısı qeyd edib ki, Serbiya-Azərbaycan əlaqələrinin sürətli inkişafında bu amil önəmli rol oynayıb:**

"Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur. Biz sözün əsl mənasında strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var".

(səh.2)

# "Bu, hələ başlanğıcdır"

## Ərdoğan terrorçulara xəbərdarlıq edib



**"Təyyarələrlə, PUA-larla apardığımız əməliyyatlar sadəcə başlanğıcdır".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Onun sözlərinə görə, terrorçuların üzərindən çıxan sənədlər onların PKK-dan fərqlənmədiyini göstərir: "Qərb ölkələrinin terrorçuların Suriyadakı qolunu PKK-dan ayırma cəhdlərinin mənasız olduğu aydındır".

Ərdoğan bildirib ki, ən uyğun vaxtda quru əməliyyatları da başlayacaq.

# Paşinyan məyusdur

## KTMT sammiti Ermənistanın gözləntilərini doğrultmadı



Kreml Bakıya qarşı cəbhə almadan Ermənistanı razı salmağa çalışır

**Dünən İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyanın sədrliyi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammiti keçirilib.**

İclasda Rusiya Prezidenti V.Putin də iştirak edib. Sammitdə beynəlxalq və regional təhlükəsizliyin aktual məsələləri və KTMT-nin fəaliyyətinin əsas nəticələri müzakirə olunub. Həmçinin təşkilatın baş katibi dəyişib. Paşinyan deyib ki, Stanislav Zas KTMT-nin baş katibi kimi üç illik fəaliyyətini başa vurub...

(səh.4)

# Erkin Qədirli layihənin əleyhinə çıxdı

## "Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni variantına 66 düzəliş edilib




**Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclasında "Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni variantı müzakirə olunub.**

İclasda komitə sədrləri, siyasi partiyaların üzvləri iştirak ediblər. Məlumat üçün bildirək ki, ötən müddət ərzində 50-ə yaxın siyasi partiya 250-dən çox təkliflərini rəsmi qaydada parlamentə təqdim edib.

(səh.4)



# Rusiya və Türkiyə generalları Sarıbabada

## Piyada əleyhinə mina sahəsinə baxış keçirilib

Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

(səh.2)

# Kiyev raket zərbələrinə tutulub

## 4 nəfər ölüb, 21 nəfər yaralanıb



**Rusiya ordusunun Kiyevə hava zərbələri nəticəsində ölənlər və yaralananların sayı artıb.**

Bu barədə Ukrayna daxili işlər nazirinin müşaviri Anton Geraşenko "Twitter"də bildirib. O, raket zərbələri zamanı 4 nəferin öldüyünü, 21 nəfərin yaralandığını bildirib. Ukrayna Rusiyanın hava zərbələrindən sonra BMT-nin təcili iclasını keçirməyə çağırıb. Bu barədə Ukrayna prezidenti Volodimir zelenski Tvitterdə bildirib. "Mən BMT-dəki səfirimizi Rusiyanın bugünkü zərbələrindən sonra BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsi barədə çağırışımızı çatdırmaq barədə təlimatlandırmışam. Mülki əhalinin öldürülməsi, mülki infrastrukturun dağıdılması terror aktıdır. (apa) Ukrayna beynəlxalq ictimaiyyətin bu cinayətlərə qətiyyətli reaksiya verməsini tələb edir" - deyə Zelenski vurğulayıb.

# Bakıda müəllim turşudan zəhərlənərək öldü



**Bakıda müəllim zəhərlənmədən dünyasını dəyişib. Oxu.az xəbər verir ki, bu barədə müəllimin işlədiyi Məktəb Lisey Kompleksi məlumat yayıb.**

Bildirilib ki, 1982-ci il təvəllüdlü Şəfəq Əliyeva pomidor turşusundan zəhərlənib.

Səhhəti pisləşən müəllim xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, bir neçə gün sonra Ş.Əliyeva dünyasını dəyişib.

*Mərhum ailəli olub, iki övladı var.*



# Ermənilər Şuşaya da atəş açırlar

## Artıq növbəti cavab əməliyyatının vaxtı yetişib

(səh.3)



# Tibbi arayış üçün 40 manat niyə verilməlidir?

## Natiq Cəfərli: "Tibbi arayışların icbari tibbi sığortanın Xidmətlər Zərfinə salınması vacibdir"

(səh.6)



# "Azərbaycan sadiq tərəfdaşdır"

## Aleksandar Vuçiç: "Prezident İlham Əliyevin sözü yetərlidir, biz onun sözünə inanırıq"

**"Azərbaycanla Serbiya sözün əsl mənasında strateji tərəfdaşdırlar". Bunu Prezident İlham Əliyev səfərdə olduğu Serbiyada, Prezident Aleksandar Vuçiçlə mətbuata bəyanatlarla çıxışı zamanı deyib. Dövlət başçısı qeyd edib ki, Serbiya-Azərbaycan əlaqələrinin sürətli inkişafında bu amil önəmli rol oynayıb:**

"Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur. Biz sözün əsl mənasında strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var".

**"Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir"**

**Prezident deyib ki, Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir:** "Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suverenliyi və ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir. Bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaq". Dövlət başçısı vurğulayıb ki, Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq: "İlk növbədə biz dost ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik".

**"Beynəlxalq təşkilatların qərar, qətnamələri və onların icrası selektiv xarakter daşıyır"**

**Ölkə rəhbəri bildirib ki, torpaqlarımız uzun illər işğal altında idi və dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər:** "Onların arasında əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz, tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul ediblər. Ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir?! Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri və onların icrası selektiv xarakter daşıyır".

**"Özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana"**

**Prezident bəyan edib ki, özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana:** "Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Bəzi hallarda bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik. Ona görə beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı dünya ictimaiyyəti öz təkliflərini verməlidir. Biz də Azərbaycan olaraq buna hazırıq. Çünki qəbul edilmiş qərarlar əgər həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə ki, bu, çox düşündürücüdür. Biz nəticə etibarı ilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, biz güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi. BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi. Özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Və biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik. Artıq 2 ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub yaradır, binaları bərpa edir, bütün o böyük ərazini - 10 min kvadrat kilometrdən böyük olan ərazini yenidən qurur".

**"Serbiya prezidenti ilə növbəti illər üçün bir gündəlik tərtib etdik"**

**Dövlət başçısı deyib ki, Serbiya prezidenti ilə növbəti illər üçün gündəlik tərtib edilib:** "Prezidentlər bu gündəliyi öz diqqətində saxlayacaq, buna nəzarət edəcək, bu məsələlərin icrasına nəzarət edəcək və bunu da operativ və səmərəli şəkildə etmək üçün əlbəttə ki, biz tez-tez görüşməliyik. Mən əziz dostumu, Prezident Vuçiçi Azərbaycana səfərə dəvət etdim. Hesab edirəm ki, ilin sonuna qədər bu səfər gerçəkləşə bilər. Və ondan sonra əlbəttə ki, mən də yenidən gələcəyəm. Mənim səfərim Serbiyaya bir qədər uzandı, yəni bir qədər gecikdi. Çünki Prezident Vuçiç 3 il yarım bundan əvvəl Azərbaycanda idi. Mən də cavab səfəri etməli idim. Amma COVİD-in müdaxiləsi nəticəsində səfər bir qədər ertələndi. Amma yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Belə səfərlərimiz çox olacaq, bizim dostluğumuz da əbədi olacaq".

**"Prezident İlham Əliyevdən çox şey öyrənə bilərik"**

**Serbiya Prezidenti Aleksandar Vuçiç bildirib ki, Prezident İlham Əliyevdən çox şey öyrənə bilərlər:**

"Biz Prezident İlham Əliyevlə görüşdük, möhtəşəm müzakirələrimiz oldu. Amma müvafiq vəziyyətə görə, o, bizim ölkədə daha uzun müddət qala bilməyəcək. Ümid edirəm ki, qısa müddət ərzində onu yenə də Serbiyada qəbul etmək imkanımız olacaq. Biz Azərbaycanla bir çox sahədə müxtəlif imkanlara malikik. Biz hər iki dövlət olaraq ərazi bütövlüyümüzü qorumağa çalışırıq və öz dövlətlərimizi beynəlxalq arenada təqdim edirik. Xüsusilə beynəlxalq hüquq normalarının tətbiqi ilə bağlı iş görürük. Bu da BMT çərçivəsində həyata keçirilir və bu, təqdirəlayiq haldır. Amma mən fikirləşirəm ki, biz Prezident İlham Əliyevdən çox şey öyrənə bilərik".

**"İlham Əliyevin sözü elə onun imzasına bərabərdir"**

**Vuçiç qeyd edib ki, onlar üçün Prezident İlham Əliyevin sözü yetərlidir, onun sözünə inanırlar:** "Azərbaycan və Prezident İlham Əliyev nəinki bizim üçün, ümumilikdə hamı üçün tamamilə sadiq tərəfdaşlardır. Müvafiq şəffaf protokollar bir yana, amma əsas bizim üçün İlham Əliyevin sözü yetərlidir. Çünki biz onun sözünə inanırıq. Onun sözü elə onun imzasına bərabərdir. Bizim üçün bu, həqiqətən də, vacib məsələdir". Serbiya lideri Azərbaycan Prezidenti ilə zəruri məsələləri müzakirə etdiklərini diqqətə çatdırıb: "Gübrə çatışmazlığı məsələləri, həmçinin neft-kimya qurğularının tikintisi və təmiri, hərbi-texniki məsələlər, beynəlxalq səhnədə beynəlxalq məsələlər, eyni zamanda, kənd təsərrüfatı məsələlərini də müzakirə etdik. Əmək və sosial təminat məsələsində isə iki ölkənin müvafiq nazirliyi arasında saziş imzalanıb və biz bununla bağlı müzakirələrimizi davam etdirəcəyik".

**"Prezident İlham Əliyev öz ölkəsinin maraq və mənafeyini həmişə qoruyub saxlayır"**

**Serbiya lideri deyib ki, Prezident İlham Əliyev öz ölkəsinin maraq və mənafeyini həmişə qoruyub saxlayır:** "Prezident İlham Əliyev hazırda Avropada ən nüfuzlu insanlardan biridir. Bütün Avropada İlham Əliyev sevilir və o, çox ağıllı insandır. O elə bir insandır ki, öz ölkəsinin ehtiramını, maraq və mənafeyini həmişə qoruyub saxlayır".

**İsmayıl**

# Putin Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanacağına ümid edir



**Sərhədin delimitasiyası, nəqliyyat və humanitar məsələlərlə bağlı qərarlar Bakı və İrəvana sülh müqaviləsi bağlamağa imkan verəcək.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya Prezidenti Vladimir Putin İrəvanda keçirilən KTMT sammitində bildirib.

Putin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderlərinin oktyabrın sonunda Soçidə baş tutan sammitini müsbət qiymətləndirib, həmçinin qeyd edib ki, aparılan danışıqlar prinsipial məsələlər üzrə gələcək kompromislər üçün yaxşı zəmin yaradıb. Prezident bildirib ki, birgə bəyanatda 2020 və 2021-ci illərdə əldə edilmiş yüksək səviyyəli üçtərəfli sazişlərə sadiqlik bir daha təsdiqlənib. O vurğulayıb ki, yalnız sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, humanitar problemlərin həlli ilə bağlı bu sazişlərin ardıcıl icrası ölkələr arasında münasibətlərin normallaşmasına kömək edəcək.

"Yalnız sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması və humanitar problemlərin həlli ilə bağlı əldə olunmuş razılaşmaları ardıcıl olaraq yerinə yetirməklə biz Ermənistanla Azərbaycan arasında münasibətlərin dayanıqlı normallaşmasına nail ola bilərik. Ümid edirik ki, bu, yekunda İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanmasına imkan verəcək", - deyə Putin vurğulayıb.

# Paşinyan Moskva və Parisin yanında yer alıb

## "Azərbaycan üçün ABŞ-ylə əməkdaşlığı genişləndirmək mütləqdir"



**"Azərbaycan-ABŞ arasında siyasi əlaqələrin inkişafı yeni siyasi imkanlar açır". Bu sözləri politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, xüsusilə Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi üzrə aparılan danışıqlar fonunda Vaşinqtonun regiona baxışı Azərbaycanın maraqlarına cavab verir:**

"Azərbaycana qarşı post müharibə dövründə ciddi siyasi təzyiqlər reallaşır. Rusiyanın Ermənistana dəstək verməklə sülh danışıqlarını pozması, Fransanın pozuculuq fəaliyyəti, İranın hərbi-siyasi və informasiya sahəsində təhdidləri Vaşinqtonun Azərbaycana dəstək verməsi ilə nəticələndi. Ağ Ev Ermənistanla sülh müqaviləsinin bağlanmasında maraqlıdır. Təbii ki, burada Vaşinqtonun geosiyasi maraqları ön plandadır. Rusiya faktoru, İranın təhdidləri ABŞ-nin Cənubi Qafqazda Azərbaycanla əməkdaşlığını labüd edir. Bu istiqamətdə hazırda Vaşinqtonla Bakı arasında siyasi təmaslar var. Amerikanın Azərbaycanı dəstəkləməsi və regionda artan təhdidlər fonunda istənilən dəstəyi verməsi önəmlidir. Bu xüsusda Azərbaycan üçün ABŞ-ylə əməkdaşlığı genişləndirmək mütləqdir".

*Ekspert xatırladıb ki, həm Moskva, həm də Paris Qarabağ separatçılarının danışıqlar müstəvisinə daşınması üçün İrəvana dəstək verir:* "Ona görə də İrəvanın sülh müqaviləsinin bağlanması istiqamətində addımlarında tam əks mövqeyi görürük. Vaşinqton və Brüsselin birbaşa Paşinyana təzyiqləri onu Azərbaycanla sülh müqaviləsinin bağlanmasına sövq edə bilər. Rusiya, İran və Fransa ABŞ, Türkiyə və Avropa İttifaqının Cənubi Qafqaz siyasətinə təsir etməyə çalışır. Bu toqquşmada Paşinyan Moskva və Parisin yanında yer alıb".

**İsmayıl**

# Rusiya və Türkiyə generalları Sarıbabada

## Piyada əleyhinə mina sahəsinə baxış keçirilib



**Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçirilib.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin rəhbəri general-mayor Fatih Akpınar və Rusiya kontingentinin rəhbəri kontr-admiral Oleq Semyonov noyabrın 23-də qeyd olunan ərazidə olublar.

Qeyd edək ki, 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-G tipli piyada əleyhinə mina bölmələrimiz tərəfindən noyabrın 21-də zərərsizləşdirilib.

*Xatırladaq ki, ötən gün Müdafiə Nazirliyi Sarıbaba yüksəkliyində aşkar edilmiş minalarla bağlı sülhməramlılar və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzini məlumatlandırıb. Aşkar edilmiş minalar barədə Rusiya sülhməramlılarının komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumatlandırılıb, eləcə də mina sahəsinə baxış keçirilməsi üçün əraziyə dəvət olunublar.*



# Sağlamlıq durumu imkan versə, bu gün əməliyyat olunacaq

## TƏBİB Səbuhi Məmmədlinin səhhəti ilə bağlı açıqlama yayıb

**Jurnalist Səbuhi Məmmədlinin səhhəti istər TƏBİB rəhbərliyinin, istərsə də indiyədək müalicə aldığı tibb müəssisələrinin administrativ və tibbi heyətinin diqqətində olub.**

"Şərq" xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.

Qeyd olunub ki, o, indiyədək TƏBİB-in tabeliyindəki tibb müəssisələrində qeydə alınan xəstəlikləri üzrə müalicə kursu keçib. Respublika Klinik Xəstəxanasında, akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində, Nərimanov Tibb Mərkəzində, M. Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasında müalicələr alıb.

"Təəssüf ki, onda şəkərli diabet, ürək çatışmazlığı, ağciyərin aşağı payında pnevmoniya, aşağı ətrafların qan damarı mənşəli ağırlaşmış xroniki xəstəliyi qeydə alınıb. Eləcə də xroniki böyrək çatışmazlığı xəstəliyi səbəbilə davamlı olaraq dializlə təmin edilir.

Hazırda onun müalicəsi A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində davam edir. Nəzərdə tutulan əməliyyatı üçün zəruri müayinə və analizlərdən keçib. Sağlamlıq vəziyyəti imkan verdiyi təqdirdə sabah (bu gün) əməliyyat olunması planlaşdırılır.

Dəyərli həmkarımıza şəfa diləyir və onu da qeyd etmək istəyirəm ki, çoxsaylı jurnalist həmkarlarımız, çalışdığı kollektiv, rəhbərliyi, Mətbuat Şurası, Medianın İnkişafı Agentliyi Səbuhi Məmmədlinin səhhəti ilə daim maraqlanır və tibb personalın nəzarəti altında onu ziyarət edirlər", - məlumatda deyilir.

# Siyasi dialoqa yol açıldı

## İqtidar-müxalifət münasibətlərində yumşalmalar müşahidə olunmağa başlayıb



**"Hakim Yeni Azərbaycan Partiyası əvvəllər öz tədbirlərinə müxalifət nümayəndələrini dəvət etmirdi. Çünki iqtidar-müxalifət münasibətləri elə də hamar deyildi". Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, Ramiz Mehdiyev-Əli Həsənov "ittifaq"ı hakim partiya ilə müxalifət qüvvələri arasında daim gərgin münasibətlərin hökm sürməsinə çalışırdı.**

Lakin Prezident İlham Əliyevin həyata keçirdiyi kadr dəyişiklikləri və siyasi islahatlar siyasi açılıma, siyasi dialoqa yol açdı. İqtidar-müxalifət münasibətlərində yumşalmalar müşahidə olunmağa başladı. Ölkədə yeni siyasi mədəniyyət formalaşdı: "Hakim partiya müxalifət partiyaları ilə təmas və əməkdaşlıq kursuna start verdi. Məhz bütün bunların nəticəsi kimi bu yaxınlarda YAP-ın təşkilatçılığı ilə mədəniyyət paytaxtımız Şuşada keçirilən beynəlxalq konfransa da müxalifətin nümayəndələri dəvət olunmuşdu. Biz YAP-ın yeni siyasi kursunu, siyasi açılımını alqışlayırıq. İqtidar partiyası ilə müxalifət qüvvələri arasında əməkdaşlıq və uzlaşma mühitinin formalaşması doğrudan da çox təqdirəlayiq haldır. YAP-In 30 illik yubiley tədbirinə müxalifət partiyalarının təmsilçilərinin dəvət olunması da bu mühitin formalaşmasına təkan verən hadisə kimi qiymətləndirilməlidir. Ölkə prezidenti və YAP-ın sədri cənab İlham Əliyevin müxalifət nümayəndələrinin də iştirak etdiyi yubiley tədbirində həm öz partiyadaşlarına, həm də bütövlükdə xalqımıza 30 il ərzində keçilən yol haqqında hesabat xarakterli çıxış etməsi olduqca müsbət tendensiyadır".

**Ə.Hüseynov vurğulayıb ki, biz əvvəllər iqtidarın da, müxalifətin də bir araya gəldiyi, rəqib siyasi liderlərin bir-birilə sivil ünsiyyət qurduğu məqamları yalnız qardaş Türkiyənin və Qərb ölkələrinin siyasi mühitində müşahidə edirdik:** "Oxşar proseslərin Azərbaycanın siyasi həyatına da yansıması bütün siyasi qüvvələr tərəfindən təqdir olunur, xoş qarşılanır. Bu milli birliyi, vəhdəti bundan sonra da qoruyub saxlamalıyıq. Bu da həm Yeni Azərbaycan Partiyasından, həm də bizdən, bütün müxalifət qüvvələrindən asılıdır".

**İsmayıl**

# Prezident Azərbaycana dost və tərəfdaş qazandırır

## Serbiya Avropanın Balkan yarımadasında daha böyük nüfuza malik dövlətlərdən biridir



**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasına rəsmi səfərə gedib. Belqrad şəhərinin "Nikola Tesla" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısını Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç qarşılayıb. İki ölkə başçısı arasında geniş tərkibli görüş keçirilib.**

Prezident İlham Əliyevin Prezident Aleksandr Vuçiç ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

**Azərbaycan Prezidentinin Serbiya səfərini "Şərq"ə dəyərləndirən millət vəkili Asim Mollazadə bildirib ki, ölkə başçısı bu səfərlərlə Azərbaycana dost və tərəfdaş qazandırır:** "Ümumiyyətlə, prezidentin bütün səfərlərinin məqsədi ikitərəfli münasibətləri və əməkdaşlığı gücləndirməkdir. Bununla da Azərbaycan beynəlxalq arenada özünə dəstək yaradır".

Səfərin mahiyyətindən danışan "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov isə deyib ki, Serbiyanın Avropaya çıxış imkanları geniş olduğu üçün hər iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi önəmlidir: "Prezident İlham Əliyev Bolqarıstan və Yunanıstanda qaz xəttinin açılışını müzakirə edən zaman Serbiya prezidenti də orada idi. Burada iştirakın əsas səbəbi isə növbəti dövrdə Azərbaycan qazının Avropaya şaxələnmiş formada çıxarılması zamanı Serbiyaya da bu qazın ötürülməsi imkanlarının genişlənməsi idi. Düşünürəm ki, ölkə başçısının indiki məqamda Serbiya səfəri də, Azərbaycan qazının yaxın gələcəkdə şaxələndirilmə imkanlarının formalaşdırılması və Avropanın əksər dövlətinə bu qazın ötürülməsi məqsədi daşıyır. Digər tərəfdən Serbiya Avropanın Balkan yarımadasında daha böyük nüfuza malik dövlətlərdən biridir. Nəzərə almalıyıq ki, Rusiya-Ukrayna savaşı davam edir və sanksiyalara görə Kremlin Avropaya ötürəcəyi enerji miqdarı azalır. Eyni zamanda tranzit imkanlar müzakirə olunur. Yəni Azərbaycan üzərindən Türkiyə, Yunanıstan və oradan da Balkanlara çıxan bir dəmir yolu xətti var. Əsas hədəf isə həmin xəttin genişləndirilməsi məsələsidir. Bu səfərdə həm də siyasi, iqtisadi, təhlükəsizlik və mədəni sahələrdə razılıq əldə olunub. Yəni strateji baxımdan bu gün Azərbaycan və Serbiya biri-biri üçün vacib tərəfdaş hesab olunur. Yaxın gələcəkdə də bu əlaqələrin daha ciddi müstəviyə keçəcəyini görmək mümkündür".

**Nihat Müzəffər**



# Ermənilər Şuşaya da atəş açırlar

## Artıq növbəti cavab əməliyyatının vaxtı yetişib

**Ermənistan silahlı qüvvələrinin təxribatları davam etməkdədir. Son iki gündür erməni silahlıları sərhədin Kəlbəcər və Daşkəsən rayonları istiqamətlərində yerləşən mövqelərimizi müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar. Bununla yanaşı, rus "sülhməramlıları"nın nəzarət etdikləri ərazidə də provokasiyalar intensivləşib.**

Qeyri-qanuni erməni silahlıları Şuşa şəhəri və Tərtər rayonu istiqamətlərində yerləşən bölmələrimizə atəş açıblar. Demək olar, hər 2-3 gündən bir ermənilər atəşkəsi pozur. Əlbəttə, şərti dövlət sərhədində və "sülhməramlı"ların nəzarət etdiyi ərazilərdə törədilən təxribatları müxtəlif qüvvələr, o cümlədən Ermənistan iqtidarı, daxildəki revanşistlər və üçüncü dövlətlər də törədə bilərlər. Lakin bunun bizim üçün elə bir fərqi yoxdur. İstənilən provokasiyaya görə bütün məsuliyyəti rəsmi İrəvan daşıyır. Son dövrlər Qarabağda yaşayan erməni terrorçularına Rusiya tərəfindən intensiv şəkildə silah-sursatın göndərilməsi ilə bağlı da məlumatlar yayılır. Hətta sonuncu məlumatda Rusiyanın Xəzər dənizi üzərindən İrana, buradan Ermənistana, oradan isə Qarabağa silah-sursat göndərilməsi qeyd olunur. Erməni terrorçularının ərazilərimizdə mühəndis-istehkam qurğuları inşa etməsi ilə bağlı da xəbərlər yayılır. Ermənistan Baş naziri Nikol Paşinyan regional əməkdaşlıqda, Azərbaycanla münasibətlərin normallaşmasında maraqlıdırsa, sabotajların qarşısını bu və ya digər formada almalıdır. Əks halda təxribatların davam etməsi rəsmi İrəvanın regionla bağlı zaman-zaman səsləndirdiyi bəyanatların səmimiliyini şübhə altına salır. Ən əsası isə növbəti anti-terror əməliyyatına zəmin hazırlayır.

**Siyasi şərhçi Azər Rəşidoğlu da "Şərq"ə açıqlamasında bildirib ki, erməni separatçılarının mütəmadi atəşkəsi pozması yeni anti-terror əməliyyatını qaçılmaz edir. Onun sözlərinə görə, rus sülhməramlıları erməni təxribatının qarşısını almırlar, əksinə, sülh prosesinə mane olurlar:** "Rusiya separatçılardan Paşinyan əleyhinə istifadə edir. Ermənistanın siyasi elitası problemlərin kökündə Rusiyanın dayandığını anlayır. Odur ki, çıxış yolunu Qərbə üz tutmaqda görür. Bu baxımdan, revanşistlərin atəşkəsi pozması Qərbin təsirinin azaldılmasına və prosesə nəzarəti ələ keçirməyə xidmət edir. Bu, Rusiyanın planıdır. Bu gün erməni cəmiyyətinin özündə də Rusiyaya qarşı nifrət var. Ona görə də revanşistlərin cəhdləri bir nəticə verməyəcək".

**Millət vəkili Sahib Alıyev bildirib ki, Fransanın Avropa Birliyi adından Ermənistana mülki missiya, Kremlin isə Vardanyan soyadlı dələduzu Xankəndinə "dövlət naziri" göndərməsi erməniləri "ruhlandırıb".** Deputat qeyd edib ki, erməni silahlıları Fransa rəhbəri E.Makronun göndərdiyi missiyaya güvənərək, bəlkə də onların tapşırığı ilə əsgərlərimizə küçə söyüşləri söyərək onları təxribata çəkməyə çalışırlar: "Görünür, artıq növbəti cavab əməliyyatının vaxtı yetişib. Ermənistan ordusunun tör-töküntüləri ya tamam zərərsizləşdirilməli, ya da Qarabağdan rədd edilməlidirlər. Göyçədən Kəlbəcərdəki mövqelərimizin atəşə tutulmasının tam qarşısını almağın yolu isə azərbaycanlıların öz dədə-baba yurd yerlərinə qaytarılmasından keçir. Şanlı ordumuzun bu missiyanı da şərəflə yerinə yetirəcəyinə əminəm. Kremlin göndərdiyi dələduz Vardanyan ona verilən tapşırıqların icrasına Qarabağda yeni "rus mərkəzi" açmaqla başlayıb. Açsın, amma ən yaxşı halda oradan qaçmaqla "missiyası"nı bitirəcək".

**İsmayıl Qocayev**

# Dünya nizamı dəyişir

## "İran hədəf taxtasına oturdulur"



**"Qərb Tehranın planlarının qarşısını aldı və həmin istiqamətdə İsrail ilə koordinasiyalı şəkildə çalışdı"**

**İranda dünəndən internet kəsilib, məktəblərin və uşaq bağçalarının bağlanmasına dair məlumatlar verilir. Hətta bir müddət əvvəl bəzi xarici ölkələr belə öz vətəndaşlarını geri çağırmışdı.**

Sual yaranır ki, rəsmi Tehran nədən qorxur ki, belə addımlar atır? Bu ölkədə dövlət çevrilişi baş verə bilərmi?

**Məsələyə münasibət bildirən siyasi şərhçi Aqşin Kərimov qeyd edib ki, İran kimi ölkələrdə internetin bağlanması və ictimai-siyasi sferada müəyyən məhdudiyyətlərin tətbiqi heç də təəccüblü gəlməməlidir:**

"Nəzərə alaq ki, İsrail daim kiber hücumlarla İranın müəyyən müəssisələrinin fəaliyyətini çökdürmək qabiliyyətini göstərib və bu sahədə böyük təcrübəyə malikdir. İrandakı etirazların miqyasının genişlənməsi və bəzi regionlarda silahlı münaqişə həddinə çatması, İsrail üçün Tehranın fəaliyyətini iflic etməyə şərait yaradır. Cənub qonşumuz isə siyasətində və strategiyasında müvazinətini qoruyub saxlamaq potensialından məhrumdur.

Çünki onun yürütdüyü siyasət böyük oyunçuların Tehrana qarşı ayaqlanmasına gətirib çıxarır. Bunun isə bir neçə səbəbi var. Birincisi, İran heç bir halda Qərblə istədiyi formatda razılıq əldə edə bilmir və onların təzyiqləri ilə üzləşir.

İkinci məqam İran dünya düzəninin dəyişməsi fonunda müəyyən planlar həyata keçirmək istəyirdi ki, Qərb bunun qarşısını aldı və həmin istiqamətdə İsrail ilə koordinasiyalı şəkildə çalışdı.

Artıq dünya nizamının dəyişdirilməsinə cəhdlər fonunda İranın da hədəf taxtasına oturdulması görünür.

Rəsmi Tehran bundan sonra təhlükəsizlik qüvvələri ilə xaricdə əməliyyatlar apararaq, daxildəki etirazlardan fikri yayındırmaq istəyir. Hadisələrin gedişatı cənub qonşumuzun proseslərə necə müdaxilə edəcəyindən, ABŞ-nin bunun qarşısında hansı planlar işlədəcəyindən, Tehranla Qərbin dil tapıb-tapmayacağından asılı olacaq. İsrail isə İranın ambisiyalarının kiçildilməsində çox israrlıdır. Bu nöqtədə bəzən İsrail və ABŞ arasında belə fikir ayrılıqları yaşanır".

**Nihat Müzəffər**

# Bakı şərtlərindən geri çəkilməyəcək

## Putin isə məsələləri Moskva mərkəzli anlayışla yoluna qoymaq istəyir



"Rusiya Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyini və özünün Ankara ilə isti münasibətlərini nəzərə alaraq Bakı ilə gərginliyə getmək planını ehtiyata ataraq birgə prioritetlər yaratmaq barədə düşünür"

**Noyabrın 22-də Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Rusiya, Azərbaycan, Ermənistan liderləri arasında 2022-ci il oktyabrın 31-də Soçidə əldə olunmuş razılaşmaların, eləcə də üç ölkənin yüksək səviyyədə əvvəlki birgə bəyanatlarının praktiki olaraq icrası məsələləri nəzərdən keçirilib.**

Azərbaycan-Ermənistan sərhədində təhlükəsizliyin təmin olunması və Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpa edilməsi üzrə üçtərəfli formatda işin davam etdirilməsinin vacibliyi vurğulanıb. Energetika sahəsində əməkdaşlığın inkişaf perspektivləri də müzakirə edilib. Qeyd edək ki, Rusiya rəhbəri V.Putin Azərbaycan dövlət başçısı ilə telefon əlaqəsi saxladıqdan sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammitində iştirak etmək üçün İrəvana səfər edib.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Rusiya Prezidenti Vladimir Putin 5 gün ərzində iki dəfə Azərbaycan lideri İlham Əliyevə zəng edib. Analitikə görə, Putin telefon diplomatiyası ilə Bakı-Ankara birgə maraqlarında yeni səhifə açılmasına və ortada olan mübahisələrin sonlandırılmasına çalışır:** "Putin məsələləri Moskva mərkəzli anlayışla yoluna qoymaq istəyir, ancaq Azərbaycan tərəfi də öz şərtlərindən əl çəkmir. Tərəflər elə ortaq məxrəc tapmaq istəyir ki, o həm Azərbaycanın tələblərinin yerinə yetirilməsi üçün Moskva tərəfindən stimul yaratsın, həm də Rusiya öz maraqlarının məzmununu dəyişsin. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin qəbul etdikləri üçtərəfli bəyanatların implementasiyası Bakının gündəliyində duran ən vacib məsələdir. Bu işdə Moskvanın da məsuliyyətləri xatırladılır. Lakin Bakının addımları və Moskvanın ermənilər vasitəsilə təxribat yaradan manevrləri ara-sıra Azərbaycanla Rusiya arasında gərginliyin ortaya çıxmasına səbəb olur. Rusiya ən çox iki məsələdə - Qarabağda yaşayan ermənilərdən istifadə edərək sülhməramlı kontingentin regiondakı ömrünün uzadılmasına və Qarabağda rus icması yaratmaqda israrlıdır.

Lakin Kremldən verilən bu siqnal Azərbaycan üçün suverenlik təhdidi xəttinə yaxınlaşan baryerdir və Bakı Moskvanın iradəsinə qarşı ciddi dirəniş göstərməkdədir. Rusiya Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyini və özünün Ankara ilə isti münasibətlərini nəzərə alaraq Bakı ilə gərginliyə getmək planını ehtiyata ataraq birgə prioritetlər yaratmaq barədə düşünür".

**A.Kərimovun fikrincə, liderlərin telefon danışıqlarında energetika sahəsindəki əməkdaşlığın perspektivlərini müzakirə etməsi ortaq nöqtəyə dair ipuclarıdır:** "Bu yaxınlarda Azərbaycanla Rusiya arasında yeni qaz sazişi imzalanıb və müqaviləyə əsasən, Rusiya Azərbaycana bu ilin noyabrın 15-dən etibarən qaz ixrac etməyə başlayıb. Nəzərdə tutulur ki, təchizat 2023-cü ilin mart ayına qədər davam etsin. Həmin müddətə qədər tədarük həcmi bir milyard kubmetrə qədər olsun. Rusiya bununla Ukrayna müharibəsində dağılmış iqtisadi mənzərəsini düzəltməyə çalışır. Lakin müqavilənin bütün detalları bəlli olmadığından demək mümkündür ki, Kreml həm də uzunmüddətli perspektivi hesablayır. Məsələn, bu, Rusiya qazının Azərbaycan üzərindən Avropaya nəqlinə nail olmaq şansıdır. Hərçənd, Qərb bunun qarşısının alınması üçün nə lazımdırsa, onu da edəcək. Çünki Avropa İttifaqında narahatlıq var və bu, onunla əlaqəlidir ki, Azərbaycanın idxalın bir hissəsini Moskvanın köməyi ilə asanlaşdırması faktı Brüsselin Cənub Qaz Dəhlizi vasitəsilə diversifikasiya üzrə səylərini boşa çıxara bilər".

**Ekspertə görə, Azərbaycan Brüssel qarşısında götürdüyü ixrac öhdəliyinin yarada biləcəyi boşluğu doldurmaq üçün Rusiya qazından daxili bazarını təmin etmək niyyətindədir:** "Amma Bakı energetika sahəsində əməkdaşlıq üfüqlərində Avropa İttifaqının səylərinə daha çox önəm verir. Çünki Bakı öz qazının Avropaya çatdırılmasından əldə edəcəyi qazancın həcminin perspektivini anlayır. İstənilən halda Moskva İrəvanın göz yaşlarına məhəl qoymayacaq və Bakının üçtərəfli bəyanatların icrasını güc yolu ilə reallaşdırmasına əlavə imkanlar yaradacaq. Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiya və Qərb arasında oynayaraq Moskvanın iradəsinə zidd hərəkətlər etməsi, sərhədə ATƏT və Avropa İttifaqı missiyalarını dəvət etməsi Kremli qəzəbləndirir. Çünki İrəvanın dəst-xəttini Rusiya özünə qarşı çevrilən qarşı inamsızlıq mühitinin alqılanması kimi qiymətləndirir. Bu baxımdan Rusiya özü də Ermənistanın cəzalandırılmasında son dərəcədə maraqlıdır".

**İsmayıl**

# Düşmənlərə göz dağı

## Azərbaycan İsraildən ən müasir silahlar alacaq



**Noyabrın 22-də İsrail Prezidenti İshaq Hersoq Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.**

İshaq Hersoq İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib və qeyd edib ki, bu, İsrail üçün mühüm dost ölkə və strateji tərəfdaş olan Azərbaycanla çox gözəl münasibətlərdə irəliyə doğru böyük bir addımdır.

Prezident İlham Əliyev telefon zənginə görə İsrail Prezidenti İshaq Hersoqa minnətdarlığını ifadə edib. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərar iki ölkə arasında dostluq əlaqələrini daha da gücləndirir.

Telefon söhbəti zamanı İsrail-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri müzakirə edilib, gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

**Azərbaycan və İsrail arasındakı münasibətlərin ölkəmizin müstəqilliyini qazanmasından sonra dinamik şəkildə inkişaf etdiyini deyən hərbi-siyasi ekspert Həşim Səhrablı vurğulayıb ki, bu inkişaf dünya üzərindəki azsaylı örnəklərdəndir:** "Artmaqda olan münasibətlərin özünün də müxtəlif səbəbləri var.

Burada İran faktorunu əsas kimi göstərə bilərik. Çünki cənub qonşumuzun bölgədəki təcavüzkar siyasəti Azərbaycanı özünə beynəlxalq arenada etibarlı tərəfdaşlar tapmağa məcbur edir. Bu tərəfdaşlar arasında isə İsrail ön plana çıxır.

Ona görə ki, Bakı yaxşı hesablamışdı ki, işğal faktına son vermək üçün hərbi yol yeganə seçim olarsa, dünyanın ən müasir silahları ilə təchiz olunmaq lazımdır. Bu silahlar isə İsrail tərəfindən istehsal olunur. İndi də Azərbaycan tərəfi hər an Ermənistandan daha güclü orduya və texnikaya malik ölkələrlə üzləşmə təhlükəsi ola biləcəyini düşünür. Regionun hazırkı siyasi qarışıqlığı və Tehranla olan gərginlik bu ehtimalı gücləndirir. Ona görə də daha güclü orduya və müasir silahlara ehtiyac duyulur. Burada da yenə rəsmi Təl-Əviv ön plana çıxır".

**Ekspertin sözlərinə görə, rəsmi Bakının İsraildə səfirlik açmasına iki fərqli bucaqdan baxılmalıdır:** "Birincisi, bu, İran və anti-Azərbaycan siyasəti yürüdən qüvvələrə mesajdır ki, onlar Azərbaycanı nə qədər sıxmağa davam etsələr, biz bu nöqtədə daha çox beynəlxalq tərəfdaşlar əldə etməyə çalışacağıq. Yəni onlardan uzaqlaşıb, düşmənlərinə yaxınlaşacağıq.

İkincisi isə Azərbaycan artıq ordu arsenalını artırmağı planlaşdırır. Son qərarlar da deməyə imkan verir ki, bundan sonra Azərbaycan və İsrail arasındakı münasibətlər daha dinamik inkişaf mərhələsinə qədəm qoyacaq. Bu isə Bakı üçün müstəsna haldır. Çünki rəsmi Təl-Əviv bizə təhlükə yaratmağa həvəsli deyil. Bu səbəblə də əlaqələrin inkişafını müsbət qiymətləndirir və daha da möhkəmlənməsini gözləyirəm".

**Nihat Müzəffər**

# Erkin Qədirli layihənin əleyhinə çıxdı

**Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclasında "Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni variantı müzakirə olunub. İclasda komitə sədrləri, siyasi partiyaların üzvləri iştirak ediblər. Məlumat üçün bildirək ki, ötən müddət ərzində 50-ə yaxın siyasi partiya 250-dən çox təkliflərini rəsmi qaydada parlamentə təqdim edib. Bununla yanaşı, parlamentdə yeni qanun layihəsi ilə bağlı dinləmələr də baş tutub. Dinləmələrdə səsləndirilən və təqdim olunan rəylər əsasında qanun layihəsinin yeni variantı hazırlanıb. Qanun layihəsi 6 fəsil və 30 maddədən ibarətdir.**

**"Əsas təkliflər daha çox rəqəmlərə yönəlmişdi"**

**Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli "Siyasi partiyalar haqqında" qanun layihəsinin ilkin variantına dəyişikliklərin səbəbini açıqlayıb. O deyib ki, qanun layihəsinin yeni variantına ümumilikdə 66 düzəliş edilib. Bura texniki düzəlişlər də daxildir:** "Düzəlişlər həm mahiyyət, həm də texniki baxımdan olub. Qanun layihəsinin ictimai müzakirələrində həm parlamentdə təmsil olunan, həm olunmayan partiyalar iştirak ediblər. Əlbəttə ki, qanun layihəsi siyasi partiyaların daha səmərəli fəaliyyət göstərməsi məqsədi daşıyırdı. Bu baxımdan yeni qanun layihəsi hazırlandı. Qeyd etdiyim bu dəyişikliklər nədən meydana çıxdı?! Əsas təkliflər daha çox rəqəmlərə yönəlmişdi. Bir sıra təkliflər var idi ki, bir sıra məsələlərdə zaman çoxalsın, bir sıra hallarda zaman azaldılsın. Yəni burada partiyaların təsis edilməsi, ləğv edilməsi, qeydiyyatdan keçməsi, reyestrdən keçməsi və s. üçün müddətlərə bağlı düzəlişlər edilib. Ümumilikdə, qanun layihəsinə münasibət pozitivdir. Parlamentdə təmsil olunan bir partiya xaric, digərlərinin nümayəndələri plenar iclasda layihəyə səs verəcəyini bildirdi. Layihə birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə edilib".

**"Siyasi partiyalar haqqında" yeni qanun zəruri idi**

**Parlament sədrinin müavini Fəzail İbrahimli deyib ki, cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatlar həyata keçirilir. Sistemli xarakter alan bu dəyişikliklər cəmiyyətin bütün sahələrini əhatə edir:** "Milli Məclis də qanunvericilikdə bu təşəbbüsə qoşulmalı idi. Ona görə də Milli Məclisdə təmsil olunan siyasi partiyalar belə qanun layihəsinin hazırlanmasının zəruri olduğunu əsaslandırdı. "Siyasi partiyalar haqqında" yeni qanunun



"Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni variantına 66 düzəliş edilib

hazırlanması zəruri idi. Hazırda mövcud olan "Siyasi partiyalar haqqında" qanunun qəbulundan 30 il vaxt keçib. 1995-ci ildə Konstitusiyamız qəbul edilib, cəmiyyətin qanunları köklü şəkildə dəyişib". F.İbrahimli nəzərə çatdırıb ki, qanun layihəsinin ilkin variantının 18 maddəsinə 45 dəyişiklik edilib, amma bu da son deyil: "İlkin variantla bu gün təqdim olunan layihə arasında da kifayət qədər fərq var, təkmilləşdirilib".

**"Ümumiyyətlə, 13 və 14-cü maddələr qanun layihəsindən çıxarılmalıdır"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev partiya üzvlərinin telefon nömrələrinin reyestrə daxil edilməsinə qarşı çıxıb. Deputat bildirib ki, partiyanın internet portalı yarada bilməməsi ilə bağlı müddəa da absurddur:** "Ümumiyyətlə, 13 və 14-cü maddələr qanun layihəsindən çıxarılmalıdır. Partiyalara göstəriş verilir ki, partiyanı necə idarə etsinlər! Buna partiya özü qərar verməlidir. Burada idarə heyətinin, sədrin olması tələb kimi qoyulur. Bu, hansı məntiqə sığır? Bu maddələrdəki məsələləri partiyalar özü həll etməlidir, xırdalıqlara getmək düzgün deyil. Yerli təşkilatlarla bağlı layihədə olan tələb çox vacib məsələdir. Bizdə çoxlu etnik xalq yaşayır. Bu qanunla onların hər biri partiya yarada, xaricdən belə insanlar məqsədyönlü şəkildə ortaya atıla bilər. Partiyanın mərkəzi orqanının Bakıda olması məsələsinə də baxmaq lazımdır. Üzvlərlə bağlı tələblər layihədə var, üzvlərin telefonlarının reyestrə daxil edilməsi tələb kimi qoyulur. Telefon nömrəsi bir növ məxfidir. Bu məsələdən YAP xüsusilə narazı olmalıdır. Çünki hamı onda nazirlərin nömrəsini biləcək. Digər məsələ isə maliyyə yardımı ilə bağlıdır. Dövlət büdcəsindən ayrılan vəsaitin 40 faizinin parlamentdə təmsil olunan partiyalar arasında bölünəcəyi deyilir. Niyə? Bunu 60 faiz edək. Bu, YAP-ın dövlət büdcəsindən maliyyələşməsinə daha çox oxşayır. Biz bu yardım məsələsinə baxmalıyıq".

**Millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa deyib ki, qanunun qəbul olunması yeni dövrün tələbidir, qələbəmizdən sonra irəli gələn zərurətdir. Deputat bildirib ki, Azərbaycanda bir hakim partiya var:** "Siyasi partiyanın məqsədi iqtidara gəlmək olmalıdır. Bu da indiki durumda real deyil. Bu zaman partiyalar dövlət işinə fayda verməyi düşünməlidir. Partiya təsis olunub, amma yenidən bizdən təsis qurultayı keçirməyimizi istəyirlər. Qanunun geriyə qüvvəsi yoxdur. Bunu artıq anlamalıyıq". F.Mustafa hesab edir ki, layihəyə epidemiya, fövqəladə vəziyyət, hərbi vəziyyət dövründə partiyaların fəaliyyətinin dayandırılmaması ilə bağlı maddəni əlavə etməyimiz faydalı olar: "Partiyalar onlayn qaydada da işləyə bilər".

**"Ruhi xəstələrin partiya fəaliyyətində iştirakı ciddi araşdırılmalıdır"**

**Deputat, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bildirib ki, ruhi xəstələrin siyasi proseslərdə və partiya fəaliyyətində iştirakı ciddi araşdırılmalıdır:** "Müəyyən məqamlar var ki, hansısa qanun tərəfindən həm partiya yaradıcılarına, həm də siyasi fəaliyyətlə məşğul olan şəxslərə məhdudiyyət qoyulur. Misal olaraq, dini ekstremizm və dini siyasi proseslərdən kənarlaşdırmaq. Buna böyük ehtiyac var. Bununla yanaşı, xarici ölkələrin Azərbaycanın siyasi sisteminə qoşulmasına imkan verməmək məntiqli və zəruridir". O qeyd edib ki, ruhi xəstələrin siyasi proseslərdə və partiya fəaliyyətində iştirakı ciddi araşdırılmalıdır: "Bunu araşdırmaq elə də çətin deyil. Çünki ölkədə həmin şəxslərin hamısı qeydiyyatda keçib. Lakin bir sıra məqamlar var ki, dövlətin partiya fəaliyyətinə müdaxiləsinin qarşısı alınmalıdır".

**"Bütün məhdudiyyətlər qanun ayihəsindən çıxarılmalıdır"**

**A.Mollazadə əlavə edib ki, bütün məhdudiyyətlər qanun layihəsindən çıxarılmalıdır:** "Məqsədə çatmalıyıq, Azərbaycanı demokratik dövlət kimi inkişaf etdirməliyik. Məsləhət görərdim ki, Venesiya komissiyası ilə birgə işləri bərpa edilsin. Beynəlxalq təşkilatlara qanunun yaradılma məqsədi, Azərbaycanda həyata keçirilən siyasi islahatların zərurəti ilə bağlı işlərin davamına ehtiyac var. Hesab edirəm ki, bu, Azərbaycan dövlətinin nüfuzunu artıra bilər".

**"Olduğu kimi yazılacaq"**

**Deputat Erkin Qədirli layihəni kökündən yanlış saydığından vaxt almaq niyyətində olmadığını söyləyib:** "Sadəcə, burada yazılsın ki, qanun layihəsinə qarşıyam və plenar iclasda əleyhinə səs verəcəyəm". İclasa sədrlik edən Fəzail İbrahimli isə deyib ki, narahatlığa əsas yoxdur: "Olduğu kimi yazılacaq".

**"Avropada seçkilərdə iştirak etməyən partiyaların fəaliyyətinə xitam verilir"**

**Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib ki, məqsəd Azərbaycanda çoxpartiyalı sistem yaratmaqdır. Hazırda Azərbaycanda 50-dən çox siyasi partiya var:** "Siyasi partiyaların rolu cəmiyyətdə artmalıdır. Bu gün Avropada seçkilərdə iştirak etməyən siyasi partiyaların fəaliyyətinə xitam verilir. Amma görün belə demokratik müddəanın bura salınmasına partiyalar razıdırmı? Partiyalara dövlət büdcəsindən maliyyə yardımı məsələsini dedilər. Maliyyə yardımının 40 faizi parlamentdə təmsil olunan partiyalar arasında, 50 faizi isə parlamentdə təmsil olunan partiyaların deputatlarının sayına görə bölünür. Dövlət qulluqçularının siyasi partiyaların üzvü olmaması ilə bağlı Qüdrət Həsənquliyevun söylədiklərinə gəlincə, mən məntiqi başa düşə bilmədim. Dövlət qulluqçusu niyə siyasi partiya üzvü olmasın?! Dövlət qulluqçusunun da birləşmək hüququ var".

**"Layihədə ən çox tənqid olunan müddəalar çıxarılıb"**

**Deputat Ceyhun Məmmədov isə qeyd edib ki, Azərbaycanda siyasi partiyalara münasibət dövlət səviyyəsində yüksək səviyyədədir:** "Əvvəlki layihədə ən çox tənqid olunan müddəalar çıxarılıb. Təsisçilərlə bağlı 20 il ölkədə yaşamaq tələbi də artıq yoxdur, üzvlərin sayı ilə tələb iki dəfə azaldılıb. Bu gün Azərbaycan Vətən müharibəsində qələbədən sonra yeni mərhələyə qədəm qoyub. Müzakirələr müzakirə xətrinə deyil, real əməkdaşlıq məqsədilə aparılırdı. Yenilənmiş variantda ictimai müzakirələr zamanı irəli sürülmüş təkliflər nəzərə alınıb. Qanun Azərbaycanda siyasi mədəniyyətin güclənməsinə, insan hüquq və azadlıqlarının təmin olunmasına ciddi töhfə verəcək".

**İsmayıl Qocayev**



# Paşinyan məyusdur

## KTMT sammiti Ermənistanın gözləntilərini doğrultmadı

**Dünən İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyanın sədrliyi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammiti keçirilib. İclasda Rusiya Prezidenti V.Putin də iştirak edib. Sammitdə beynəlxalq və regional təhlükəsizliyin aktual məsələləri və KTMT-nin fəaliyyətinin əsas nəticələri müzakirə olunub. Həmçinin təşkilatın baş katibi dəyişib. Paşinyan deyib ki, Stanislav Zas KTMT-nin baş katibi kimi üç illik fəaliyyətini başa vurub:**

"Bundan sonra baş katibin səlahiyyətlərini Qazaxıstan nümayəndəsi İmanqali Tasmaqambetov icra edəcək". Sammit Ermənistanda müəyyən kəsimlər tərəfindən etirazla qarşılanıb, hətta lokal etirazlar da baş tutub. Siyasi şərhçi Tevos Arşakyan bildirib ki, ermənilər KTMT-ni boykot edirlər. Onun sözlərinə görə, artıq maskalar cırılıb, erməni xalqı dostunu-düşmənini tanımağa başlayıb: "İndi hamı bilir ki, KTMT Ermənistanın güvənə bildiyi bir alyans deyil. Bir gün öncə Azərbaycan Prezidenti İrəvana çox aydın ismarış göndərdi. Əliyev dedi ki, KTMT-də Azərbaycanın dostları Ermənistanın dostlarından çoxdur. Artıq bu, bizim üçün bir siqnal olmalı idi. Hansı səbəbə görə biz Rusiyanın oyuncağına çevrilən KTMT ilə əməkdaşlığımızı davam etdirməliyik? Nədən bu sammitin keçirilməsinə büdcəmizdən pullar ayırmalıdır?". Bəzi ekspertlərin fikrincə, Paşinyan Ermənistanda KTMT-yə son zərbəni vurmağa hazırlaşır. Bir neçə gündür sərhəddə və Azərbaycan daxilində mövqelərimiz ardıcıl atəşə tutulur və gərginlik yaradılır. Rusiyalı ekspertlər bunu düşünülmüş plan sayırlar və hesab edirlər ki, bu gərginliyin yaradılmasında məqsəd Paşinyanın KTMT sammitində Azərbaycana qarşı mövqe tələb etməsinə bəhanə formalaşdırmaqdır. Ancaq yeni bir gərginlik arzulamayan Rusiya bu təşəbbüsə qarşı çıxacaq. Bu isə Paşinyan komandasına ölkə daxilində Rusiyaya qarşı təbliğat üçün əlavə fürsət verəcək. Ermənistan baş naziri sammitdə iştirak etmək üçün İrəvana gələn üzv ölkə liderlərinə qarşı da qeyri-etik davranışa yol verib. Qazaxıstan, Qırğızıstan, Tacikistan və Belarus liderləri Qasım-Jomart Tokayev, Sadır Japarov, İmaməli Rəhman və Aleksandr Lukaşenkonu hava limanında XİN-in rəhbəri də deyil, müavini qarşılayıb. İrəvana ən sonuncu gələn Rusiya lideri Vladimir Putini isə hava limanında, təyyarənin önündəcə Nikol Paşinyan qarşılayıb. Analitiklərə görə, Paşinyanın KTMT iclasına qatılan liderlərin heç birini yox, məhz Putini şəxsən qarşılaması Rusiya liderinə yarınmaqdan daha çox, digər liderlərə hörmətsizlikdir.





Kreml Bakıya qarşı cəbhə almadan Ermənistanı razı salmağa çalışır

**Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov bildirib ki, KTMT-nin İrəvanda keçirilən sammiti təşkilat üçün vacib olsa da, Ermənistan-Azərbaycan nizamlanması üçün prinsipial deyil. Onun sözlərinə görə, İrəvan sammiti KTMT üçün ona görə vacib olacaq ki, təşkilat ABŞ-nin Rusiya ilə əməkdaşlıq edənlərə qarşı repressiv siyasəti şəraitində fəaliyyətini davam etdirəcək:** "Təşkilata üzv dövlətlər Rusiya ilə əlaqələri qoparmadan, Qərbin təzyiqlərinə məruz qalmadan mövcudiyyətləri üçün modul axtarıb tapacaqlar. Çünki KTMT-yə üzv dövlətlər Rusiyaya görə ABŞ-la, ümumilikdə Qərblə konfrantasiyaya getmək istəmirlər". Rusiyalı ekspert qurum daxilində Ermənistan-Azərbaycan məsələsi ilə bağlı vahid mövqeyin olduğunu qeyd edib: "Paşinyan hakimiyyətinin Ermənistanı KTMT-dən çıxarmaq siyasəti ilə bağlı çağırışlarının səbəbi təşkilatın Ermənistan-Azərbaycan münaqişəsində İrəvanın tərəfini tutmamasıdır. Təşkilatın bütün ölkələri Ermənistanın tərəfində olmayacaqları ilə bağlı vahid mövqedədirlər. Hətta onların bir çoxu daha çox Azərbaycanın tərəfindədirlər, nəinki KTMT üzvü olan Ermənistanın".

**Rusiyalı siyasi ekspert Yevgeni Mixaylov isə deyib ki, sammitin İrəvanda anti-Rusiya aksiyalarının fonunda keçirilməsi maraqlıdır:** "Moskva Ermənistan ərazisində təhlükəsizliyi özü təmin edir və Rusiya hesab edir ki, İrəvanın KTMT-yə Azərbaycana qarşı müharibəyə qoşulmaqla bağlı çağırışları təxribatdır. Ermənistana Rusiyanın maraq dairəsindən kənara çıxmağa heç bir halda imkan verilməyəcək. Bununla yanaşı, Moskva İrəvana Rusiya-Azərbaycan münasibətlərinə təsir göstərməyə də imkan verməyəcək".

**Siyasi şərhçi Asif Nərimanlı da deyib ki, Ermənistanın məqsədi İrəvanda Putinin iştirakı ilə KTMT-nin sammitini keçirməklə Azərbaycana qarşı cəbhə yaratmaq idi:** "İclasdan öncə Paşinyanın Rusiya prezidentinə "erməni xalqı sizdən cavab gözləyir" mesajı verməsi də istəyinə nail olmaq üçün düşünülmüş gediş idi. Lakin KTMT-nin Bakıya qarşı İrəvanın istədiyi mövqeyi sərgiləcəyi gözləntisi azdır. Bu təkcə təşkilat üzvlərinin Azərbaycanla münasibətlərindən yox, həm də Rusiyanın prosesdə tərəf olmaq istəməməsindən irəli gəlir. Kreml Bakıya qarşı cəbhə almadan Ermənistanı razı salmağa çalışır. Ona görə də təşkilatın iclaslarından nəticə çıxmayacağı bəllidir".

**İsmayıl**

# Bahalaşma əsasən bayramlarda baş verir

## Süni qiymət artımı ilə mübarizə güclənməli, sistemli hal almalıdır



**2023-cü il dövlət büdcəsi haqqında qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Yaxın günlərdə qanun layihəsinin müzakirələri davam etdiriləcək. İlk iclaslarda hökumət üzvləri, nazirlər gələn ilin dövlət büdcəsi haqqında ətraflı məlumat veriblər. Çıxış edən millət vəkilləri bir çox məsələləri gündəmə gətiriblər, iradlarını, təkliflərini səsləndiriblər.**

Xüsusən, son dövrlərdə müzakirə predmetinə çevrilmiş süni qiymət artımı və inflyasiya məsələlərindən söz açıblar. Bəzi deputatlar ərzaq və qeyri-ərzaq qiymətlərinin kəskin bahalaşmasını, o cümlədən inflyasiyanı gündəmə daşıyıb, öz narahatlıqlarını ifadə ediblər. Əməkhaqlarının, təqaüd və pensiyaların artırılmasını istəyiblər. Məlumata görə, ölkədə ötən ildən başlayaraq inflyasiya yüksəlib və 13 faizdən çox olub. Xatırladaq ki, 2023-cü il dövlət büdcəsinin gəlirləri 30,7 milyard, xərcləri 33,3 milyard manat məbləğində nəzərdə tutulub. Xam neftin 1 barelinin orta illik ixrac qiymətinin 50 ABŞ dolları olması proqnozlaşdırılır. Həmçinin işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulur. Təbii ki, ictimaiyyəti daha çox maraqlandıran məqamlardan biri də sosial ödənişlərdir. Gələn ilin büdcəsində sosialyönümlü xərclərə 15 milyard 219 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, 2023-cü ildə sosial sferaya ayrılan vəsaitin həcmində ciddi artımlar olacaq. Deputat vurğulayıb ki, büdcə gəlirlərinin təxminən 46 faizi sosial istiqamətlərdir:** "Yeni büdcədən ayrılan hər 100 manatın 46 manatı sosial istiqamətlərə xərclənəcək. Bu, pensiyanın indeksasiya, eyni zamanda sosial proqramlaşdırılması baxımından yeni imkanlar deməkdir. Hesab edirəm ki, 2023-cü ilin dövlət büdcəsi sosial xarakter daşıyır ki, bu da sosial istiqamətə daha çox vəsaitin ayrılmasını reallaşdıracaq. Əlbəttə, bunlarla yanaşı, ərzaq bahalaşmasına qarşı mübarizənin genişləndirilməsi, xüsusən, süni qiymət artımının qarşısının alınması çox vacibdir. Süni qiymət artımları praktiki olaraq əsasən bayramlarda müşahidə edilir. Yeni İl, eləcə də Novruz bayramı ərəfəsində daha çox ərzaq məhsulları bahalaşır. O baxımdan qiymət artımı ilə mübarizə gücləmnəli və sistemli hal almalıdır, monitorinqlər aparılmalıdır. Həmçinin, yerli istehsal hesabına tələbin ödənilməsinə böyük ehtiyac var və buna nail olmağa çalışmalıyıq. Bununla növbəti aylarda qiymət artımlarının zəifləməsini və bütövlükdə inflyasiya səviyyəsinin aşağı düşməsini də müşahidə edə bilərik".

**İsmayıl Qocayev**



# İlin sonuna qədər sülh gözlənilmir

## Siyasi vəziyyət elə bir mühit yaradıb ki, Ermənistan tərəfinin sülhə gəlməsi üçün davamlı təzyiq olmalıdır

**“Azərbaycanla Ermənistan arasında da beynəlxalq hüquqa, ədalət prinsipinə əsaslanan sülhün, təhlükəsizliyin təmin edilməsi dövrün və zamanın tələbidir”. Bu barədə Prezident İlham Əliyevin Bakıda keçirilən “Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu” mövzusunda xüsusi konfransının iştirakçılarına müraciətində bildirilib.**

Dövlət başçısının müraciətində qeyd edilib ki, tarixi təcrübə göstərir ki, münaqişələr əbədi davam edə bilməz. Xatırladaq ki, ilin sonuna doğru sülh müqaviləsinin imzalanacağı ilə bağlı müəyyən iddialar var idi. Lakin prosesin başqa istiqamətdə cərəyan etdiyi göz önündədir. Ermənistan Baş naziri Nikol Paşinyan “çərçivə sazişindən” danışır, sülh danışıqlarına zidd olan açıqlamalar verir. Üstəlik, erməni silahlıları sərhəddə davamlı təxribatlar törədir.

**Politoloq Azər Qasımov “Şərq”ə açıqlamasında deyib ki, sülh müqaviləsinin ilin sonuna kimi bağlanacağına ümidlər olsa da, proses asan başa gəlməyəcək. Siyasi şərhçiyə görə, problemin kökləri çox dərinə işləyib:** “Onillər boyu davam etmiş qarşıdurmanın tezliklə sülhlə nəticələnəcəyi ehtimalı azdır. Müharibədən sonra yaranan siyasi vəziyyət elə bir mühit yaradıb ki, Ermənistan tərəfinin sülhə gəlməsi üçün davamlı təzyiq olmalıdır. Azərbaycan sülh müqaviləsinə regionun stabilliyi və inkişafı baxımından əlverişli şərait yaratması kimi yanaşır. Ermənistan isə sülhə kapitulyasiya kimi baxır. Bu da regiondan kənar və regiondakı güclərə manevr etmək imkanı verir və destruktiv mühit yaradır. Qarşılıqlı olaraq ortaq məxrəcə gəlmək demək olar ki, mümkün deyil. Paşinyan ümumi bir sazişin imzalanmasını, mövcud olan problemlərin həllinin isə bundan sonra tədricən çözülməsini təklif edir. Yəni sərhəd və Qarabağ ermənilərinin “statusu” məsələsinin sonraya saxlanılmasını istəyir. Sərhəd məsələsini qəbul etmək olsa belə “status” söhbəti Azərbaycan üçün qəbuledilməzdir. Ermənistanın təxribatları və pozucu davranışları fonunda Azərbaycan Prezidentinin bir daha sülh mesajı verməsini xoş məram kimi qəbul etmək lazımdır. Prezident dəfələrlə vurğulayıb ki, Azərbaycan dövləti regionda sülh istəyir, amma bu, təktərəfli mümkün deyil. Ermənistan normal yaşamaq istəyirsə, iki ölkə arasında sülhün bağlanmasına razılıq verməlidir. Bu, hər bir normal dövlətin istəyi və arzusudur. Ancaq Ermənistan özünü normal dövlət kimi apara bilmir. İrəvan heç kimin təhriklərinə baxmadan öz müstəqil seçimini etməlidir - sülh, ya hərb. Üçüncü variant yoxdur”.

**İsmayıl Qocayev**

# Rişi Sunak Londonun siyasətini dəyişməyəcək

## Böyük Britaniya Ukraynaya dəstəyini davam etdirəcək



**“Böyük Britaniyanın yeni baş nazirinin Ukrayna barədə yürüdəcəyi siyasəti maraqlı idi. Bəlli oldu ki, Böyük Britaniyanın Ukrayna-Rusiya məsələsindəki xətti dəyişməyəcək”.**

*Bunu “Şərq”ə açıqlamasında beynəlxalq məsələlər üzrə şərhçi, Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidməti rəhbəri Əziz Əlibəyli deyib.*

Siyasi şərhçinin fikrincə, müharibənin ilk vaxtlarından bəri Ukraynanın ən ciddi müttəfiqi Böyük Britaniyadır: “London Kiyevə eyni səviyyədə dəstək verməyə davam edəcək. Rişi Sunakın Kiyevə səfəri Polşanın bombalanmasından (red. Rusiya Müdafiə Nazirliyi Polşa KİV-inin və rəsmilərinin, guya Rusiya raketlərinin Pşevodov ərazisinə düşməsi ilə bağlı bəyanatlarını təxribat adlandırıb) sonra gerçəkləşdi. Rusiyanı ittiham etdilər. Lakin səbəb yoxdu deyə ciddi irəliləyiş olmadı. Rusiya intensiv bombardman prosesinə start verdi.

Bombardman qarşılığında hətta son zamanlar Ukraynanın başlatdığı əks-hücum əməliyyatı dayandı. Böyük Britaniya da Ukraynanın köməyinə çatdı. Hava müdafiə sistemlərinin verilməsi ilə bağlı qərarı açıqladı. Təkcə bu il Britaniya Ukraynaya 2,3 milyard funt-sterlinqdən çox hərbi yardım edib. Hələ əlavə hava hücumuna qarşı dəstək, o cümlədən 120 xüsusi zenit silahı, həmçinin pilotsuz uçuş aparatları verəcəklər”.

*Qeyd edək ki, noyabrın 19-da Böyük Britaniyanın Baş naziri Rişi Sunak öncədən elan olunmamış bir səfərlə Kiyevə gedib. İlk telefon danışığı zamanı Volodimir Zelenski Sunakı Ukraynaya dəvət etmişdi və o, yaxın gələcəkdə ölkəyə səfər niyyətini təsdiqləmişdi.*

**Aygün Tahir**

**Hərbi geyimi qanunsuz daşıyanlarla bağlı məsələ yenidən gündəmə gəlib.**



Paytaxtda Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən hərbi qulluqçulara verilən orden və medalları, hərbi geyimi, fərqlənmə nişanlarını qanunsuz əldə etməklə görüntü yaradan şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən verilən məlumata görə, döyüşlərdə iştirak etməyən, 2-ci qrup əlil, 1986-cı il təvəllüdlü şəxs barəsində qanunamüvafiq tədbirlərin görülməsi təmin edilib. Ondan üzərində daşıdığı orden və medallar, hərbi geyim götürülüb.

# Dələduzluğa əfv olmamalıdır

## Hərbi formadan istifadə edənlərə ağır cəza verilməlidir

İctimaiyyət nümayəndələrinin sözlərinə görə, hər bir forma geyinən şəxsə ayrı-ayrılıqda nəzarət etmək mümkün deyil. Bu problemdən çıxış yolu yalnız maariflənmədən keçir.

Xatırladaq ki, hərbi geyim formasını daşımaq hüququna Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət keçən bütün hərbi qulluqçular, hərbi lisey kursantları, toplantılara çağırılmış hərbi vəzifəli şəxslər, habelə ehtiyata, yaxud istefaya buraxılmış hərbi geyim forması daşımaq hüququ olan hərbi qulluqçular malikdir.

Hərbi geyim formasını daşımaq hüququ olmayan vətəndaşların hərbi qulluqçuların fərqləndirmə nişanları olan geyim formasını geyməsi qadağandır.

**Millət vəkili Fazil Mustafanın “Şərq”ə açıqlamasına görə, hərbiyə aidiyyəti olmayan şəxslərin forma geyinib şəkil, video paylaşması, şəhərdə o formada gəzməsi, guya vətənpərvərlik nümunəsi kimi göstərilsə də, hoqqabazlıq elementidir:** “İnsanlar, hərbi, dini və başqa bir sahəyə mənsub geyimlərlə manipulyasiya edirlər. Hərbiyə aidiyyəti olmayan insanların hərbi geyimdə olması üçün müvafiq strukturların razılığı olmalıdır. Bundan əvvəlki müdafiə nazirinin dövründə millət vəkillərinin hərbi hissələrə səfərləri təşkil edilirdi. Bu səfərlər çərçivəsində biz də hərbi geyimlər geyinirdik və bu geyimlər bizə nazirlik tərəfindən təqdim olunurdu. Bu səfərlər bir növ təbliğat xarakterli olduğu üçün millət vəkili və ya digər dövlət qurumu əməkdaşlarının hərbi hissələrə gedərkən əsgərlə eyni geyimdə olmağı effektiv hal kimi dəyərləndirilirdi. Amma dələduzluq və hoqqabazlıq məqsədi ilə hərbi geyimlərdən sui-istifadə etmək yolverilməzdir. Fikir versəniz, ordudan təxris olunmuş insanların bir qismi də özlərini göstərmək üçün hər yerə hərbi formada gedirlər. Hansı ki, axtarsan həmin şəxslərin çoxu fərari çıxar. Əsl qazilər, döyüşçülər belə şeylərlə diqqət mərkəzinə gəlməyi xoşlamırlar. Döyüş yolu keçən şəxslərin paradlarda, hərbi tədbirlərdə medallarını taxmaq üçün hərbi forma geyinməsi başadüşüləndir. Amma metroya, bulvara, hansısa yas, toy məclisinə hərbi geyimlə getmək etik deyil. Düzdür, ortada dələduzluq faktı olmadığı müddətdə hərbi geyimdə gəzdiyi üçün kimisə cəzalandırmaq doğru deyil. İnsanlarımız özləri diqqətli olmalı və bu cür həssas mövzular üzərindən reytinq yığmamalıdır. Hərbi geyim konkret xidmət göstərən insanlara aid bir formadır. Heç bir tələb olmadığı halda kimlərinsə özünü vətənpərvər kimi göstərmək üçün bu geyimi geyinməsi səmimiyyətdən uzaqdır”.

Deputat deyib ki, hərbi geyimdən dələduzluq məqsədi ilə istifadə edənlərə gəldikdə isə onlarla bağlı ciddi addımlar atılmalı, sərt cəzalandırılmalıdırlar. Bununla bağlı Cinayət Məcəlləsində müəyyən dəyişikliklər edilməlidir. Onlara qarşı ən ağır cəzalar verilməlidir ki, bu tendensiya ənənə halını almasın.

Hərbi formaların açıq satışda olduğunu vurğulayan millət vəkili onları əldə etməyin elə də çətin olmadığını deyib: “Hətta hərbiçilərin özləri belə formalarını adi mağazalardan alır deyə onun satışını məhdudlaşdırmaq mümkün deyil. Bu məsələdə cəmiyyət ayıq-sayıq olmalı, hərbi geyimlə dələduzluq edən ünsürlərin ifşasında müvafiq qurumlara dəstək verməlidir. Əgər kiminsə qonşusu bu cür fırıldaqlıqla məşğuldursa, buna qarşı həssas olmalı və aidiyyəti qurumların diqqətinə çatdırmalıdır ki, başqaları da zərər görməsin”.

**Şəymən**

# İran, Rusiya və Türkiyə Suriya ilə bağlı birgə bəyanat yayıb

## Hər üç ölkə terrorçuluğun bütün təzahürlərinə qarşı birgə mübarizə aparacaq

**İran, Rusiya və Türkiyə Suriya ilə bağlı Astana formatı çərçivəsində keçirilən 19-cu beynəlxalq görüşün yekunlarına dair birgə bəyanat yayıb.**



APA xəbər verir ki, bəyanatda hər üç ölkənin terrorçuluğun bütün forma və təzahürlərinə qarşı mübarizədə birgə işi davam etdirmək, Suriyanın suverenliyi və ərazi bütövlüyünü pozmağa, sərhədyanı hücumlarla qonşu ölkələrin milli təhlükəsizliyini təhdid etməyə çalışan separatçı qüvvələrə qarşı durmaq əzmində olduğu qeyd olunub.

Həmçinin, Suriyanın ayrı-ayrı bölgələrində müxtəlif adlar altında fəaliyyət göstərən terrorçu qruplaşmaların və onların törəmələrinin fəaliyyətinin artması, o cümlədən mülki obyektlərə və məcburi köçkün düşərgələrinə günahsız insanların ölümü ilə nəticələnən hücumlar pislənilib.

Sənəddə Suriyanın şimalı ilə bağlı bütün tənzimləmələrin tam şəkildə həyata keçirilməsinin zəruriliyini vurğulanıb.

Qeyd olunub ki, Suriyanın şimal-şərqindəki vəziyyəti müzakirə edən tərəflər bu bölgədə daimi təhlükəsizlik və sabitliyin yalnız ölkənin suverenliyi və ərazi bütövlüyü əsasında əldə edilə biləcəyinə razılaşıblar.

Tərəflər, regionda yeni reallıqlar yaradılması cəhdlərini, o cümlədən terrorçuluqla mübarizə bəhanəsi ilə qanunsuz özünüidarəetmə təşəbbüslərini rədd edərək, Fəratın şərqində Suriyanın birliyini pozmağa çalışan separatçı qüvvələrə qarşı mübarizə əzmlərini bir daha təsdiqləyiblər.

Bəyanatda separatçı qruplar tərəfindən Fəratın şərqindəki dinc əhaliyə qarşı artan düşmənçilikdən, dinc nümayişlərin dağıdılması, məcburi hərbi xidmətə çağırış və təhsil sahəsində ayrı-seçkilik praktikası da daxil olmaqla hər cür ayrı-seçkilikdən ciddi narahatlıq ifadə edilib.

Ölkələr Suriyaya aid olan neft gəlirlərinin qanunsuz ələ keçirilməsinə və transferinə etiraz etdiklərini vurğulayıblar.

Sənəddə Suriya münaqişəsinin hərbi yolla həllinin mümkün olmadığı qeyd olunub və BMT-nin vasitəçiliyi ilə siyasi prosesin davamlı irəliləməsinə sadiqlik ifadə olunub.



# “İbtidai sinif müəllimi institut direktorundan çox maaş alır”

## Emin Əmrullayev: “Bu, elə-belə nəticə deyil”

**Hazırda ibtidai sinif müəlliminin əməkhaqqısı hər hansı tədqiqat institutunun direktorunun maaşından çoxdur.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev “Doktorantların və gənc tədqiqatçıların XXV Respublika Elmi Konfransında” bildirib.

“Bu, elə-belə nəticə deyil. Son illərdə müəllimlərin işə qəbuluna xüsusi diqqət edilir, qəbul müsabiqə əsasında həyata keçirilir. Artıq müəllimlərin sertifikasiya prosesinə də start verildi və nəticələrə uyğun olaraq əməkhaqqıları artırıldı. Prosesdə ilk iştirak edənlər də ibtidai sinif müəllimləri oldu. 2015-ci ildən etibarən bu istiqamətdə müəyyən addımlar atılır və prosesə davam ediləcək. Beləliklə, biz arzuolunan nəticələr əldə edə bilirik”, - nazir qeyd edib.

# Düyünün qiymətində ucuzlaşma olmalıdır

## Məhsulun gömrük rüsumundan azad edilməsi qiymətə təsir etməlidir

**“İstənilən sağlam iqtisadi mühitdə hər hansı məhsulun rüsumdan azad edilməsi, şübhəsiz ki, qiymət əmələgəlmə prosesinə müsbət təsir göstərməlidir”.**



**Bu fikirləri “Şərq”ə iqtisadçı Fuad İbrahimov Azərbaycan hökumətinin Pakistandan düyü idxalını gömrük rüsumundan azad etməsinə münasibət bildirərkən deyib. Onun qənaətincə, hazırda hökumətin atdığı bu addım dünyada gedən bahalaşma prosesini stimullaşdırır:** “Vergidən azadedilmə qiymətin ucuzlaşmasında effektlidir. Təəssüf ki, ölkəmizin bazarında bir çox məhsulların gömrük rüsumundan, hətta Əlavə Dəyər Vergisindən (ƏDV) azad edilməsinə rəğmən, qiymətdə müsbət tendensiyalar müşahidə olunmur. Məsələn, Azərbaycanın yerli istehsal məhsullarından yumurta, toyuq əti, çörək kimi məhsullar ƏDV-dən azaddır. Amma indiki zamanda hər hansının qiymətinin ucuzlaşmasını görmürük.

Təhlillər göstərir ki, bu güzəştlərdən “sahibkarlar” yerindəcə istifadə edirlər. Hazırkı məqamda malın ucuzlaşması baş vermir, ən yaxşı halda qiymət sabit qalır.

Dünyada ərzaq məhsullarının qiymətində dinamik artım prosesi gedir, düyü də ən strateji məhsullar sırasına daxil edilə bilər. Nəzərə almaq lazımdır ki, dünyada taxıl məhsullarının qiyməti qalxıb. Nəticədə qiymət əmələgəlmə prosesində panik bir vəziyyət yaranır. Səbəb isə Rusiya-Ukrayna müharibəsidir.

Rusiya dünyada bir nömrəli ixracatçıdır. Ukrayna sülh dövrünü əhatə edən son məlumatlara əsasən, ilk beşlikdəki ixrac ölkələri sırasına daxil olub. Hazırda bu ölkələrin bir-biriləri ilə müharibə vəziyyətində olmaları taxıl qiymətlərinə mənfi təsir göstərir.

Bu da panikaya gətirib çıxarır. Düyü həssas məmulatlar qrupuna aid olduğu üçün hazırkı vaxtda dünya bazarlarında qiymətinin qalxma ehtimalı mövcuddur. Ona görə də idxal vergisini azad etsək belə, dünya bazarlarında qiymət qalxarsa, ölkəmizə də təsirsiz ötüşməz.

Lakin nəzəriyyənin əsaslarını nəzərə alaraq fikrimizi söyləsək, əlbəttə ki, bu qəbildən olan addımlar əslində ucuzlaşmaya şərait yaratmalıdır. Ən pis halda qiymətin bahalaşmamasına gətirib çıxarmalıdır”.

Qeyd edək ki, Azərbaycan hökuməti Pakistandan düyü idxalını gömrük rüsumundan azad edib.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi



# Hər bir detal nəzərə alınıb

## “Dövlət proqramı regionların inkişafına aparan mükəmməl yol xəritəsidir”

**Regionların inkişafı Qarabağımızın işğaldan azad edilməsiylə yeni mərhələyə qədəm qoydu. Azərbaycan dövlətinin qarşısında Qarabağın aran, dağlıq hissəsi də daxil, Ağdam, Füzuli, həmçinin Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonlarının daxil olduğu Şərqi Zəngəzur iqtisadi zonasının dirçəldilməsi kimi mühüm vəzifə dayanır.**

Böyük Qələbə əldə etdiyimiz 44 günlük Vətən müharibəsinə qədərki dövrdə ölkənin digər regionlarında sürətli sosial-iqtisadi inkişafa nail olundu. İnfrastrukturlar yeniləndi, quruculuq, abadlıq işləri, yeni müəssisələrin yaradılması, iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi, səhiyyə, təhsil müəssisələri, mədəniyyət ocaqları inşa edildi, turizmin inkişafı üçün münbit şərait yaradıldı. Sosial-iqtisadi proses daimi xarakter daşıdığından işlər bu gün də davam edir. Hökumətin üzərinə düşən vəzifə isə ikiqat artıb, çünki Qarabağın dirçəldilməsi və 30 ilə yaxın müddətdə doğma yurda qayıdış həsrətilə yaşayan əhalinin el-obasına dönüşü həyata keçməlidir. Məhz bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planını təsdiqləyib. Tədbirlər Planı çoxşaxəlidir və sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edir. Əsas məsələlərdən biri əhalinin doğma yurda qayıdışının sürətləndirilməsi olduğundan Tədbirlər Planına əsasən, 2022-2025-ci illərdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyətləri və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə birgə 10 270, 2022-2026-cı illərdə isə 34 500 ailənin köçürülməsini təmin etməlidir. İşğaldan azad edilmiş ərazilərdə tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi nəzərdə tutulub. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə yerləşən qəsəbə və kəndlərdə ailə sağlamlıq mərkəzləri və tibb məntəqələrinin tikintisi və tibbi xidmətin təşkili nəzərdə tutulur. 2023-2025-ci illərdə Səhiyyə Nazirliyi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İTSDA, yerli icra hakimiyyətləri və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə birgə 49 ailə sağlamlıq mərkəzinin və 39 tibb məntəqəsinin tikintisinin layihələndirilməsi, 41 ailə sağlamlıq mərkəzinin və 33 tibb məntəqəsinin tikintisini təmin etməli və bu işləri başa çatdırmalıdırlar. Həmçinin işğaldan azad olunan ərazilərin iqtisadi potensialı və əmək bazarının tələbləri nəzərə alınmaqla, peşə və orta ixtisas təhsili müəssisələrinin fəaliyyəti təmin ediləcək. 2022-2025-ci illərdə Elm və Təhsil Nazirliyi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Turizm Agentliyi ilə birgə 9 təhsil müəssisəsinin, o cümlədən 8 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisinin və bərpasının layihələndirilməsi, 4 təhsil müəssisəsinin, o cümlədən 3 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisinə və bərpasına başlanılmasını təmin etməlidir. 2026-cı ildə bu təhsil müəssisələri, o cümlədən peşə təhsili və orta ixtisas təhsili müəssisələri istifadəyə verilməlidir.

və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir. Ölkə başçısı tərəfindən bu günə kimi bir çox dövlət proqramlarının uğurla icra olunduğunu deyən AMEA rəhbəri Böyük Qayıdışa dair I Dövlət Proqramının da Prezident İlham Əliyevin rəhbərliyi altında yüksək səviyyədə həyata keçiriləcəyini bildirib.

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri, əslən Ağdamdan olan Vüqar Tofiqli Dövlət proqramında hər bir detalın nəzərə alındığını, tərtib edilmiş tədbirlər planının da qısa zamanda əhalinin doğma yurdlara qayıdışını təmin etməyə hesablandığını bildirdi:**

- İşğaldan azad olunmuş ərazilərdə dövlət sifarişli binalar, mənzillərlə yanaşı yaşayış məntəqələrində çoxmənzilli binaların və fərdi evlərin inşası da nəzərdə tutulur. Bununla bağlı mərhələli şəkildə tədbirlər görüləcək. Tədbirlər planında yaşayış məntəqələrinin salınmasına özəl investisiyaların cəlb edilməsi və dövlət-özəl tərəfdaşlığının qurulması təmin ediləcək. Sənədə əsasən, İpoteka Kreditə Zəmanət Fondu və MİDA tərəfindən ərazilərdə ipoteka kreditləşməsi vasitəsilə yaşayış sahələrinin satışı dəstəklənəcək, ərazilərdə ipoteka kreditləşməsi vasitəsilə yaşayış sahələrinin satışının dəstəklənməsi məqsədilə İKZF kapitallaşdırılacaq, yaşayış sahələrinin tikintisi, habelə tikinti materiallarının istehsalı ilə məşğul olan subyektlərin maliyyə resurslarına çıxış imkanları genişləndiriləcək, cəlb edilmiş resursların maya dəyəri azaldılacaq. Bunun üçün müvafiq qanunvericilik aktlarının qəbul edilməsi ilə yaşayış sahəsinin alınması üçün ipoteka kreditləşməsi mexanizminin şərtlərinə yenidən baxılacaq (kreditin girova, gəlirin borca nisbətləri və s.), sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanət verilməsi mexanizmi təkmilləşdiriləcək, İKZF-nin zəmanəti ilə alınan kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiya veriləcək. Bundan əlavə, azad edilmiş ərazilərdə enerjidən istifadə zamanı güzəştli tariflər tətbiq ediləcək. Sənədə əsasən, İqtisadiyyat Nazirliyi 2022-2024-cü ilə qədər Energetika Nazirliyi ilə birlikdə ərazilərdə enerjidən istifadə zamanı güzəştli tariflərinin tətbiqinə dair təkliflər hazırlanması və təsdiq edilməsini təmin etməlidir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın tədbirlər planında həmçinin Ağdam - Xankəndi qaz kəmərinin çəkilməsi də əksini tapıb. Sənədə əsasən, 2025-ci ilə qədər SOCAR tərəfindən Ağdam - Xankəndi qaz kəmərinin və üzərində QTM-lər quraşdırmaqla qaz kəməri qollarının tikintisi təmin edilməlidir. Bütün bunlar həm doğma yurdlarından köçkün düşmüş əhalinin el-obaya qısa zamanda qayıdışını təmin edəcək, həm də Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişinə səbəb olacaq. Ümumilikdə Qarabağın iqtisadi dirçəlişi isə ölkə iqtisadiyyatının daha da güclənməsi, digər regionlarla iqtisadi əlaqələrin yaranması və ümumi iqtisadi inkişaf tempinin daha da yüksələcəyi, regionlarda məskunlaşmış əhalinin sosial vəziyyətinin yaxşılaşacağı deməkdir.

### Azad edilmiş ərazilərdə enerjidən istifadə zamanı güzəştli tariflər tətbiq ediləcək

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafının təmin və təşviq edilməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasında Böyük Qayıdışa dair I Dövlət Proqramı” ilə bağlı komissiya yaradılıb. Akademiyanın Rəyasət Heyəti bununla bağlı qərar qəbul edib. Qərara əsasən, Böyük Qayıdışa dair I Dövlət Proqramında AMEA-nın üzərinə düşən vəzifələrdən irəli gələrək tədbirlər planının hazırlanması məqsədilə akademik İsa Həbibbəylinin sədrliyi ilə komissiya yaradılıb. İ.Həbibbəyli qeyd edib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ

qeyd olunur ki, sifarişçi təşkilatlar Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, MİDA, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi ilə birgə 2022-2026-ci illərdə Ağdam, Füzuli, Şuşa, Xocavənd, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarında 34500 mənzilin və fərdi yaşayış evinin inşasını təmin etməlidir. İşin sürətlənməsi məqsədilə də yaşa-

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Tibbi arayış üçün 40 manat niyə verilməlidir?

## Natiq Cəfərli: “Tibbi arayışların icbari tibbi sığortanın Xidmətlər Zərfinə salınması vacibdir”

**Azərbaycanda poliklinikalarda sağlamlıq haqqında standart arayış üçün 40 manat tələb olunur. Bir müddət əvvəl başlanan bu proses vətəndaşlar tərəfindən narazılıqla qarşılanır. Bu barədə məlumatı olmayan vətəndaşlar poliklinikada 40 manat ödəyəcəklərini eşidəndə əvvəl bunu həkimlərin özləri üçün istədiyini düşünərək etiraz edirlər. Lakin sonradan məbləğin İcbari Tibbi Sığorta tərəfindən təyin olunduğu və 40 manatın banka ödəniləcəyi deyilir.**

Vətəndaşlar əvvəllər sürücülük vəsiqəsi üçün tələb olunan bu arayışa pul ödəmədiklərini, icbari tibbi sığortanın tətbiqindən sonra rüsum müəyyənləşdirildiyini söyləyirlər.

İcbari tibbi sığortaya keçiddən sonra bəzi arayışlar üçün pul tələb olunması müəyyən narazılıqlara səbəb olub. Sosial platformada sürücülük imtahanı vermək üçün sağlamlıq haqqında tibbi arayışın ödənişli olması, buna görə vətəndaşlardan 40 manat tələb olunması səbəbindən şikayətlənənlər də var.

Məsələ ilə bağlı İcbari Tibbi Sığorta Agentliyindən Bakupost.az -a verilən açıqlamada arayışın 40 manat olduğu təsdiqlənib:

“Qeyd edək ki, Prezident İlham Əliyevin 13 may 2022-ci il tarixli Fərmanı ilə TƏBİB tabeliyindəki dövlət tibb müəssisələri tərəfindən əhaliyə İcbari Tibbi Sığorta üzrə Xidmətlər Zərfinə daxil olmayan və ödəniş tələb olunan tibb xidmətlərini və tarifləri TƏBİB müəyyənləşdirir. 18 yaşdan yuxarı vətəndaşların sağlamlıq barədə arayışı ödənişlidir. Bu məsələ İcbari Tibbi Sığortanın səlahiyyətində deyil.

*Amma aşağıdakı şəxslər üçün arayışlar ödənişsizdir:*

- 18 yaşa qədər uşaqlar
- Hərbi xidmətə çağırılanlar

Qalan hallarda hər kəs üçün sağlamlıq arayışı ödənişlidir”.

**İqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, tibbi arayışların icbari tibbi sığortanın Xidmətlər Zərfinə salınması vacibdir.** Mütləq bu barədə qanunvericilikdə dəyişiklik edilməlidir. Əgər hazırda buna görə vətəndaşdan pul tələb olunursa, o zaman seçim imkanları da olmalıdır. Yox əgər biz bu arayışları ancaq dövlətə məxsus müvafiq poliklinikalardan alırıqsa, demək ki, ödənişsiz olmalıdır:

“İcbari Tibbi Sığorta haqqında qanunvericilikdə pullu xidmətlərin göstərilməsi haqqındakı qaydalara əsaslanaraq bu addımı atırlar. Halbuki, bu sahədə qanunvericilikdə də boşluqlar var. Tibbi arayışların pullu xidmətlərə aid olmamasına dair konkret fikirlər yer almayıb. Arayışın verilməsi hansısa bir xidmət növü deyil. Sadəcə, məlum olan bir sağlamlıq durumunun kağız formada təsdiqidir. Qanunvericiliyə düzəliş edilməlidir. Tibbi arayışın verilməsi pullu xidmət növü kimi dəyərləndirilə bilməz”.

**N.Cəfərlinin sözlərinə görə, tibbi arayışa görə məcburi ödəniş tələbi onun vergi növünə çevrilməsi deməkdir:** “Bu gün az qala idman zalına, hovuza yazılmaq üçün də insanlardan tibbi arayış istəyirlər. Bir arayış üçün də 40 manat ödəniş edilməsi kifayət qədər yüksək məbləğdir və insanların cibinə uyğun deyil”.

**Şəymən**

# Şeiri erməni dilində çap olunanlar çox da sevinməsin

## Əsəd Cahangir: “Erməni müəlliflərin əsərləri Azərbaycanda nəşr edilsəydi, buna yaxşı baxmazdım”

**Azərbaycan şairlərindən bir neçəsinin şeirlərinin Ermənistanda nəşr olunmuş antologiyaya daxil edilməsi ətrafında müzakirələr bitmir. Qeyd edək ki, bu barədə məlumatı mühacirətdə yaşayan şairə Günel Mövlud feysbuk hesabında paylaşıb. Günel Mövlud bildirib ki, erməni jurnalist Yuri Manvelyanın təşəbbüsü və baş redaktorluğu ilə nəşr olunan antologiyaya, Azərbaycan şairlərindən Rasim Qaraca, Həmid Herisçi, Aqşin Yenisey və Nərmin Kamalın şeirləri erməni dilinə tərcümə olunaraq daxil edilib.**

Məlum hadisəyə adıçəkilən şairlərdən bir neçəsi münasibətini bildirdi. Aqşin Yenisey məsələdən xəbərsiz olduğunu, heç kimin ona şeirlərinin nəşri ilə bağlı müraciət etmədiyini vurğulayaraq münasibətini belə ifadə edib: “Müəllifinin xəbəri olmadan onun şeirlərini tərcümə və çap etməyin, hətta antologiyaya salmağın özü dünyəvi dəyərlərə hörmətsizlikdir. Oğurluq yolu ilə dost olmaq, sülhə gəlmək mümkündürmü? Çox istəyərdim ki, o antologiyanı hazırlayan erməni müəlliflər əvvəlcə bu suala cavab axtarsınlar”.

Şair Rasim Qaraca isə “Şərq”ə açıqlamasında münasibətini “əlbəttə, müəllifin özünün xəbəri olsa, tərcümə prosesində iştirak etsə yaxşı olar. Amma məlum məsələdir ki, bu, indi mümkün deyil. Qaldı ki antologiyada Azərbaycan şairlərinin şeirlərinə də yer verilməsinə, məncə, bunu kim edibsə humanist məqsədlərlə edib, şeir çap etməkdə başqa nə məqsəd ola bilər?!” sözləri ilə ifadə edib.

**Gənc yazarlardan Tural Turan isə feysbuk səhifəsində paylaşım edərək Azərbaycan Yazıçılar Birliyini geri qalmaqda günahlandırıb:** “Ermənistanda çap olunan azərbaycanlı müəllifləri ürəkdən təbrik edirəm! Böyük uğurdur. Ardı gəlsin. İllər əvvəl bu haqda yazmışdım. Demişdim ki, düşməni məğlub etmək istəyirsənsə və ya onunla dostlaşmağı düşünürsənsə, qarşı tərəfə mədəniyyətlə, şeirlə, nəsrlə yaxınlaşmalısan. Təəssüf ki, onlar bu dəfə də bizi qabaqladılar. Özlərini sülhə əl uzadan ilk tərəf kimi göstərə bildilər. Biz yenə də ermənilərə uduzduq. Mən illərdir Yazıçılar Birliyinə, onun rəhbərliyinə bu barədə açıq müraciətlər etmişəm. Qulaqardına vurdular. Onlara bu sərf etmirdi. Çünki Kreml (sovet) qafalı adamlara bu cür unikal ideyalar lazım deyil. Onlara ucuz tədbir təşkil edib şəkil paylaşmaqla görüntü yaratmaq sərf edir. Ermənistanda Azərbaycan yazıçılarını çap etdiyinə görə Zara Hatutyana və digərlərinə təşəkkür edirəm! Heç olmasa, ardını biz gətirək və gələn dəfə özümüzünküləri təbrik etmək diləyi ilə...”



## Kəmalə Abıyeva: “Bəlkə də heç belə kitab da yoxdu. Bizim kafamızı yoxlayırlar”

Maraqlıdır ki, T.Turanın AYB-yə iradlarını doğru sayanlar, gənc yazarı da, Ermənistanın sülh göyərçini libası geyinməsini, erməni naşirin guya ki bizə barışıq əli uzatmasını önə çəkərək təqdir edənlər də var. Və belə bir münasibət, şəxsən bizdə təəccüb və təəssüf doğurdu. Nəinki son 30 ildə, əsrlərlə Azərbaycan xalqının barışıq əlini süngüylə qarşılayan ermənilər olub. Deyəcəklər, “amma görürsünüz, özlərini dünyaya sülhpərvər təqdim etməyi bacarırlar”. Olsun, onların sülhpərvər, ədəbiyyat aşiqi olmadığını ki biz bilirik. Şairlərimiz və şeirlərimiz oğru millətin yaman xoşuna gəlir. Bir neçə ildən sonra antologiyada toplanan şeirlərin erməni müəlliflərinə aid olduğunu iddia etməyəcəklərinə əminsiniz? Digər tərəfdən bu gün şeirlərin çapında AYB-ni niyə irəli düşmədiyinə görə tənqid edənlər bir neçə il əvvəl belə bir antologiyanı nəşr etsəydi, AYB-ni topa tutardılar. Bəzi yazarların gözündə AYB-nin “əskisi” onsuz da daim “tüstülü”dür. AYB erməni müəlliflərin şeirlərini nəşr etsəydi, Vətən xaini elan ediləcəkdilər. Bir də ki, belə bir nəşrə - jestə heç lüzum da görünmür. Xeyir ola?!. Bu gerçəyi artıq anlamamız lazımdır ki, nə etsən də, istər 10 barmağının 10-nu da bala batır, erməni erməniliyindən dönməyəcək. Lap yaxın, necə deyərlər, qulağımızın dibindəki keçmiş, ötən günlər (Laçından, Kəlbəcərdən rədd olub gedərkən etdikləri vəhşiliklər) daha bir sübutdur.

Lakin sual suallığında qalır. AYB nə əcəb erməni şairlərinin şeirlərini çap etməyib, niyə “irəli düşmək” istəməyib?

**Ədəbi tənqidçi Əsəd Cahangir “Şərq”ə açıqlamasında məlum olaya münasibətini atalar sözləri ilə ifadə etdi:**

- Su axar, çuxurunu tapar. Birini deyim: Niyyətin hara, mənzilin ora. Fikrimi konkretləşdirməyimi istəyirsinizsə, cavabım budur: Erməni müəlliflərin əsərləri Azərbaycanda nəşr edilsəydi, buna yaxşı baxmazdım. Etiraz edərdim. İndiki şəraitdə də doğru hesab etmirəm. Hər şeyin öz zamanı, öz vaxtı var. İndi bunun zamanı deyil.

**Şairə Kəmalə Abıyeva da məlum hadisəyə münasibət bildirib:**

- Bir çap vərəqi paylaşılıb ki, ermənilər bəzi yazarlarımızı tərcümə edib. Vərəq də latınca. Buna sevinən müəlliflər var. Bəlkə də heç belə kitab da yoxdu. Bizim kafamızı yoxlayırlar. Erməniləri daha ağıllı hesab edənlər də. Elə bu cür düşüncələr illərlə güzəştə getməyimizə səbəb oldu. Qonşu olmağa məcburuq. Bağışlamağa yox. Nə siyasət, nə xalq? Hamısı eynidi. Bir erməni ailəsi ilə qonşu idik. Çox mədəni, çox sakit. Hadisələr başlayanda düşündüm ki, bu yazıqların nə günahı? Köçdülər. Məlum oldu ki, öz cəmiyyətlərinə hər ay pul köçürürlərmiş...

**Məlahət Rzayeva**

# Əxlaqsızlara aman verməmək olmaz

## Taksi sürücülərinə qarşı reydlərin keçirilməsi müsbət tendensiyadır

**Bakıda narkotik vasitə aludəçisi olan, eləcə də xanım müştərilərə əxlaqsız təkliflər etdiyinə görə barələrində şikayətlər olan taksi sürücülərinə qarşı əməliyyat keçirilib.**

Məlumata görə, əməliyyat nəticəsində 50-yə yaxın taksi sürücüsü saxlanılıb və onlar məsuliyyətə cəlb edilib. Onların əksəriyyətinin barəsində inzibati protokollar tərtib edilib və məhkəmələrə göndərilib. Daxili İşlər Nazirliyinin Mətbuat xidməti taksi sürücülərinə qarşı əməliyyatla bağlı məlumat yayıb.

Bildirilib ki, paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində cari ilin noyabr ayı ərzində müxtəlif taksi şirkətlərinin sürücüləri tərəfindən 31 hüquqpozma faktı qeydə alınıb.

Onlardan 1 fakt üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi, 1 fakt üzrə oğurluq cinayəti, 29 fakt üzrə qadın sərnişinlərə qarşı qeyri-etik təkliflərlə bağlı olub.

Qeyd edək ki, törədilən və texniki vasitələrlə qeydə alınan hüquqpozma halları ilə bağlı 29 sürücü inzibati məsuliyyətə, 2 sürücü isə cinayət məsuliyyətinə cəlb edilib. Digər faktlar üzrə hazırda araşdırmalar davam etdirilir.

İddialara görə, bəzi sürücülər zaman keçirmək və yaxud qadınlarla tanış olmaq üçün taksi fəaliyyəti ilə məşğul olurlar. Yəni onlar sərnişinlə maraqlanır, sonradan reysə çıxırlar. Və yaxud zəng edib "kartla ödəyəcəksiniz və ya nağd sualını" verirlər. Bu zaman sərnişinin səsindən müəyyən təsəvvür yaranır.




Ekspertlər isə hesab edir ki, belə fəaliyyətlə məşğul olan sürücülərin qarşısını almaq mümkün deyil. Çünki onlar taksi şirkətlərinin tələb etdiyi standartları ödəyir, verilən sualları düzgün şəkildə cavablandırır və boşluq buraxmırlar.

**Nəqliyyat sahəsi üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda liberal bazar iqtisadiyyatı əsasında yaranmış xidmətdən öz maraqları üçün sui-istifadə edən insanlar var.** Həm taksi şirkətlərinə qoşulan, həm də fərdi qaydada taksi sürücülüyü edən şəxslərin bir qismi narkotik vasitələrin satışı, kriminal əməllər və eləcə də qadınlara qarşı zorakılıqla məşğul olur.

Ekspertin sözlərinə görə, şikayətlərin əksəriyyəti taksi sürücüləri ilə sərnişinlər və sürücülərlə taksi şirkətləri arasındakı anlaşılmaz vəziyyətlərdir. "Çox təəssüflər ki, problemlər müvafiq qurumlar tərəfindən tənzimlənməmdiyi üçün bu sahədə bir xaos var. "Hesab edirəm ki, hüquq-mühafizə orqanları tərəfindən keçirilən reydlər kifayət qədər müsbət tendensiyadır və bu reydlərin miqdarı artırılmalıdır. Vətəndaşlara qarşı nalayiq hərəkətlər edən şəxslər saxlanılaraq cərimə edilməli və taksi idarə etmələri qadağan edilməlidir".

**E.Cəfərovun fikrincə, taksi fəaliyyətində bu cür nizamsızlıqların yaranmasının əsas səbəbi odur ki, tənzimləyici qurumlar Nazirlər Kabinetinin 2019-cu ildə qərara aldığı xüsusi reqlament və tələblərin yerinə yetirilməsinə nəzarəti həyata keçirə bilmirlər. NK-nın Bakı şəhərində taksi fəaliyyəti ilə bağlı konkret reqlament və tələbləri var:**

"Əsas şərtlərdən birinə görə, taksi kimi fəaliyyət göstərən minik avtomobillərinin damında sarı işıqlı fənər olmalıdır, sürücünün yaşı 21-dən az olmamalı və ən azı iki illik sürücülük təcrübəsi olmalıdır. Əksər sürücülər bu şərtlərin heç birinə əməl etmir. Nəzarət mexanizmi də yox dərəcəsindədir. Ona görə də biz zaman-zaman bu cür problemlərlə qarşılaşırıq. Onu deyim ki, bəzi vətəndaşlarımız da öz hüquqlarını bilmirlər. Taksi sürücüsü hər hansı bir sərnişinə qarşı nalayiq hərəkət edib, təhqir və söyüşlə danışıbsa, həmçinin əxlaqsız təkliflər edibsə, sərnişinlər dərhal DİN-in102 "Qaynar xətt"inə müraciət etməlidir. Sürücü tərəfindən istehlakçı hüquqları pozulan sərnişinlər isə Vergilər Xidməti və ya Antiinhisarın "Qaynar xətti"nə, taksi fəaliyyətini tənzimləyən Bakı Nəqliyyat Agentliyinə müraciət etməlidir".

**Şəymən**



# 25 milyonluq nəhəng anlaşma

## Argentina-Səudiyyə Ərəbistanı matçından əvvəl mübahisə yaranıb

*(əvvəli səh. 8)*

Məlumatlara görə, Cənubi Amerikadan bir ölkənin 2030-cu il üçün ciddi təşəbbüsü olduğu və bu ölkənin Uruqvay olduğu bildirilib. Uruqvayın Argentina ilə birgə dünya çempionatı keçirməyi hədəflədiyi və səfir kimi Luis Suares və Lionel Messinin seçildiyi bildirilib.

Eyni zamanda Messi və Suaresin dünya çempionatının səfirlik təklifinin qəbul edildiyi və Argentina-Uruqvay matçına ev sahibliyi etmək üçün FİFA-ya rəsmi müraciət ediləcəyi qeyd edilib.

2022-ci il Qətərdəki dünya çempionatından sonra futbolda 4 illik dünya çempionatı fasiləsi başlayacaq. 2026-cı ildə Dünya Çempionatı ABŞ, Meksika və Kanadanın tərəfdaşlığı ilə keçiriləcək. 2030-cu il Dünya Kuboku üçün rəsmi müraciətlər iyun ayında başlayıb. İndiyə qədər İspaniya-Portuqaliya ortaqlığı ilk rəsmi addım kimi gündəmə gəlib.

Səudiyyə Ərəbistanı, Misir və Yunanıstanın ortaqlığı da 2030-cu il üçün müzakirə edilən alternativlər arasındadır. Nəhayət, Argentina-Uruqvay ortaqlığı 2030-cu il Dünya Kuboku üçün gündəmə gəlib.

2030-cu il dünya çempionatının ev sahibi FİFA-nın 2024-cü ildə keçiriləcək 74-cü konqresində müəyyənləşəcək.

**Turan**

# "Tik-Tok" dondurulmuş bal trendi ilə insanları xəstələndirir

## Vəfa İsmayılova: "Gənclər gündə iki və ya üç çay qaşığı, bəzi xəstəlikləri olan insanlar isə gündə bir qaşıqdan çox bal istifadə etməməlidirlər"

**Qısa müddətdə populyarlıq qazanan "Tik-Tok" tətbiqində dondurulmuş bal yemək trendinə milyonlarla insan qoşulub.**

Mütəxəssislər trendə qoşulan insanlara xəbərdarlıq edib.

Onlar 630 milyon şərh və video alan bu trendin insanlarda insulinə qarşı müqaviməti zəiflədəcəyini bildirib. Eyni zamanda yüksək şəkər tərkibi dişlərin çürüməsinə səbəb olur. Dondurulmuş bal mədə və bağırsaq xəstəliklərinə də gətirib çıxarır. Qastrit kimi şikayəti olanlar ondan uzaq durmalıdır.

Həmçinin, bu bal yüksək kalori tərkiblidir. Arıqlamaq istəyən şəxslər istifadə etməməlidir. Əsas ziyan isə 1-ci və 2-ci tip şəkərli diabet xəstəsi olan insanlar üçündür. Şəkər xəstəliyi olan insanlar bal yeyərkən porsiyasına diqqət etməlidir.

"Tik-Tok" kimi kanallarda sürətlə yayılan tendensiyaları və çağırışları tətbiq etməzdən əvvəl bu tendensiyaların nə qədər sağlam olduğunu araşdırmaq, mümkün riskləri anlamaq və fiziki sağlamlığımızı qorumaq üçün çox vacibdir.

**Dietoloq Vəfa İsmayılova isə deyib ki, bal bədəndən zərərli toksinləri çıxaran əla antioksidantdır. Zərərli toksinlər bədəndən tərk edəndə mədə-bağırsaq traktının və dərinin vəziyyəti yaxşılaşır.** Balın bununla bağlı faydaları zamanla və bir çox klinik tədqiqatlarla sınanıb. Amma bal 1 yaşdan kiçik uşaqlara zərərləyir. Arılar bal hazırlamaq üçün çiçəklərdən nektar toplayarkən, botulizm bakteriyalarını da toplayıb fərqində olmadan balın hazırlanmasında istifadə edirlər: "Yetkin insanlarda həm bədənin müqaviməti güclü olduğundan, həm də mədənin turşu səviyyəsi bu bakteriyanın zərər verməsinə imkan vermir. Körpələrdə isə həm müqavimət sistemi yaxşı inkişaf etmir, həm də mədə yalnızca ana südünü həzm edəcək haldadır.



Yetkin insanların əksinə, kiçik uşaqlarda həzm sistemində botulizm mikroblarını yoxlayan, bakteriyaların çoxalmasını və zəhər ifraz etməsini əngəlləyən faydalı bakteriyalar hələ inkişaf etməyib. Bu bakteriya uşaqlarda "botulizm" adı verilən təhlükəli zəhərlənməyə yol açabilər. Zəhərlənən körpə, nəfəsalma və udqunma problemi çəkə bilər, qol, ayaqlar və boyunda gücsüzlük ortaya çıxa bilər və bu hal çox ciddi problemlərə yol aça bilər. 1 yaşını keçmiş uşaqlara balın zərəri olmazkən, bu yaşdan aşağı uşaqlara bal verilməməyi tövsiyə edilir".

Dietoloq deyib ki, gənclər gündə iki və ya üç çay qaşığı, bəzi xəstəlikləri olan insanlar isə gündə bir qaşıqdan çox bal istifadə etməməlidirlər. Onun sözlərinə görə, piylənmə, şəkərli diabet, ateroskleroz və ya hipertoniyadan əziyyət çəkənlər balı xüsusi ehtiyatla yeməlidirlər: "İnsanda istənilən yaşda bala qarşı allergiya ola bilər. O, bala qarşı allergiyası olmayan insanlara bu məhsuldan yarım çay qaşığından çox yeməməyi tövsiyə edib.

Balın tərkibində turşular, mədəni qıcıqlandıran məhsullar var. Ona görə də onun həddindən artıq istehlakı qastrit və hətta mədə xoralarının inkişafına səbəb ola bilər. Amma eyni zamanda, bədənə enerji verən bioaktiv maddələr olduğundan soyuqdəymə zamanı kömək edir. Xolesterolu normallaşdırır, yaddaşı yaxşılaşdırır.

Balda kalsium da var, beyin tərəfindən asanlıqla mənimsənilir və müsbət təsir göstərir. Balın istifadəsinin əhəmiyyətli nəticələri təxminən 2-3 ildən sonra görünə bilər. Tərkibindəki antioksidantlar damarların daralmasının qarşısını alır və normal qan dövranını bərpa edir. Balın ürək problemləri olanlar üçün çox faydaları var. Heç bir problem olmasa belə, ürək xəstəliklərinin profilaktikasında istifadəyə yararlıdır".

**Şəymən**

**Minnətdarlıq**

2 həftə idi ki, boğazım ağrıyırdı. Bir neçə aptekə getdim. Aldığım dərmanların heç təsiri olmadı.

Nəhayət, Abbas Mirzə Şərifzadə 380 "A"-da yerləşən 1 saylı aptekə yollandım. Məni Lamiyə xanım, Cahangir, Elman və başqaları gülərüzlə qarşıladılar. Lamiyə xanım 2 dərman təklif etdi və bununla boğaz ağrısından xilas oldum. Onlara öz minnətdarlığımı bildirirəm.

Sağ olsunlar!

**Hörmətlə: Fazilə Məmmədova**

**Elan**

Kosayeva Şəbnəm Məhəbbət qızına məxsus ZİL markalı , 99 KE 928 qeydiyyat nişanlı nəqliyyat vasitəsinin E.3 1823844 saylı Şassi nömrəsi (Bilka) itdiyi üçün etibarsız sayılır.

# "Tarixin zəfər yolu"

## 28 saylı Laçın məktəbində təqdimat keçirilib





**Xətai rayonunda yerləşən 28 saylı Laçın rayon məktəbində yazıçı-jurnalist Subut Mehtiyevin "Tarixin zəfər yolu" kitabının təqdimatı olub. Bu, "Zəfər tarixinin qəhrəmanları" layihəsi çərçivəsində oxucuların ixtiyarına verilən növbəti kitab idi. Tədbirin orta məktəbdə keçirilməyi kitabın məzmun və qayəsinin nə qədər əhəmiyyətli olmasından xəbər verirdi. Zəfər tarixi haqqında yazılan kitabların məqsəd və məramı gənc nəsillərə vətən sevgisinin aşılanmasıdır. Tədbirin təhsil müəssisəsində keçirilməsi zəfəri qazanan şəhid və qazilərimizin şərəfli döyüş yolunun məktəbdə gənclərə təbliğ olunmasının vacibliyini ortaya qoyur.**

28 saylı Laçın rayon məktəbinin tərbiyəvi işlər üzrə direktor müavini Sevinc Əliyeva tədbiri giriş sözü ilə açaraq mövzunun mahiyyəti barədə geniş məlumat verdi. Daha sonra kitabın müəllifi Subut Mehdiyev kitab haqqında məlumat verərək qeyd etdi ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin vətənpərvərliyin tərənnümü, ölkəmizin müdafiəsində qəhrəmancasına həlak olmuş şəhidlərin, həmçinin qazilərin keçdiyi şərəfli döyüş yolu barədə vətənpərvərlik nümunələrinin gənc nəsillərə çatdırılması, vətənin müdafiəsində qəhrəmanlıqlara imza atmış döyüşçülərin döyüş yolunun təbliği istiqamətindəki çağırışlarına qoşularaq, yazıçı-jurnalist Səhər Manafova ilə "Zəfər tarixinin qəhrəmanları" layihəsinə başlayıblar.

Müəllifin sözlərinə görə, bu layihədə Azərbaycan Ordusunun inkişaf tarixi və müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu və balanslaşdırılmış siyasət, bunun nəticəsi olaraq 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə barədə də məlumatlar yer alıb. Bu kitabda vətənpərvərlik nümunələrinə geniş yer ayrılıb. Onun sözlərinə görə, "Tarixin Zəfər yolu" kitabında Ali Baş Komandan İlham Əliyev Laçının Qarabağın açarı olduğu və strateji əhəmiyyəti, mineral su ehtiyatları, təbiətinin ekoloji faydalılığı barədə tarixi çıxışı yer alır. Kitabda eyni zamanda tarixçi alim Şikar Qasımovun Laçının tarixi barədə geniş araşdırma yazısı öz əksini tapır. Tarixdə adı fəxarətlə çəkilən tarixi şəxsiyyətlər barədə də məlumatların olması bu kitabın nə qədər maraqlı və oxunaqlı olmasını bir daha təsdiq edir. Daha mühüm və vacib məqamlardan biri də odur ki, kitabda millət vəkili Mahir Abbasın Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibinə daxil olmuş Laçının region və Qarabağ, bütövlükdə isə Azərbaycan üçün hansı iqtisadi yükü daşıması barədə ətraflı yazısı var. Həmçinin Babək Aslanovun rəhbərliyi altında cəmlənmiş 30 nəfər bələdçi-kəşfiyyatçı kimi minlərlə gənclərə örnək ola biləcək qəhrəmanların fədakarlığı barədə məlumatlar kitabda qeyd edilib. Kitabda həm Birinci Qarabağ, həm də 44 günlük Vətən savaşında döyüşmüş bir neçə qəhrəman döyüşçü haqqında da geniş və ətraflı məlumatlar var. Eyni zamanda Birinci Qarabağ savaşında canlarını fəda etmiş 305 nəfər şəhid, 44 günlük Vətən savaşında şəhid olmuş 15 hərbçi və 4 nəfər mülki şəhid barədə də bu kitabda geniş məlumatlar verilir.

Daha sonra söz Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, millət vəkili Müşfiq Məmmədli çıxış edərək kitabın əhəmiyyətindən danışdılar.

"Laçın yurdu" jurnalının baş redaktoru Arif Məmmədli, Laçın rayon icra hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynurə Həsənova öz çıxışlarında bu gün şanlı zəfərimizin əldə olunmasında Azərbaycan Ordusunun keçdiyi tarixi və şərəfli döyüş yolundan söhbət açıb və bu şərəfli tarixin yaşadılması baxımından kitabın nə dərəcədə əhəmiyyətli olmasını vurğulayıb. Daha sonra Səhər Manafova çıxış edərək layihənin yaranma zərurətindən və görülməş işlər barədə tədbir iştirakçılarına məlumat verib.

*Sonda 28 saylı Laçın rayon orta məktəbinin direktoru Nofəl İsmayılov çıxış edərək Subut müəllimə yaradıcılıq uğurları arzulayıb və bu kimi tədbirlərin tezliklə Laçında təşkil olunmağını arzu edib.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3351



## "Təəccüblü olan odur ki..."

### Professor zəlzələdən sonra vətəndaşların beynindəki suallara aydınlıq gətirib

**İstanbul Texniki Universiteti (İTU) Geologiya mühəndisliyi bölümünün müəllimi, professor Ziyadin Çakır narahatlığa səbəb olan zəlzələdən sonra sosial şəbəkədə qorxularını paylaşan vətəndaşların beynindəki suallara aydınlıq gətirib.**

Zəlzələnin sürpriz olmadığını bildirən Ziyadin Çakır, "1999-cu ildə Gölyakanın şimalında İzmit qırılmasının davamında qırılmayan bir parça var idi. Çox güman ki, gərginlik qırılma nöqtəsinə gəlib. Beləliklə, zəlzələ sürpriz olmadı. Təəccüblü olan odur ki, belə böyük zəlzələdə insan tələfatı və ciddi dağıntı olmayıb. Bu, həqiqətən də təəccüblüdür və bu baxımdan, deyəsən, biz bu regionda baş vermiş zəlzələdən dərs almışıq", - deyə bildirib.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, professor sözlərinə belə davam edir: "Beləliklə, 1999-cu il zəlzələsindən bu yana bu bölgədə bina ehtiyatlarının yenilənməsi və bina yoxlama siyasətinin uğurla davam etdiyi qənaətinə gələ bilərik. Yoxsa əvvəlki şəraitdə belə böyük bir zəlzələnin içinə düşsəydik, Düzce düzündə böyük dağıntılar görə bilərdik".

Zəlzələnin geniş ərazidə hiss olunmasının normal olduğunu ifadə edən Ziyadin Çakır deyib ki, 1999-cu ildən bəri bu bölgədə belə bir zəlzələ olmamışdı: "Rayonda əsas qırılmamış əskik parça var idi, o da qırıldı. Bu xətdəki digər kiçik qırılmalar o qədər də böyük zəlzələlər yaratmır. Yaxın gələcəkdə 6 və daha yuxarı zəlzələ ehtimalı demək olar ki, yoxdur".

**Turan**

## Xəstəliyi üzündən...

### Braziliya prezidenti şalvar geyinə bilmir



**Braziliya prezidenti Jair Bolsonaru ayağındakı infeksion iltihabi xəstəliyi səbəbindən şalvar geyinə bilmir.**

Bakupost.az xəbər verir ki, bu barədə vitse-prezident Amilton Mourano bildirib.

Dərini və dərialtı toxumanı zədələyən kəskin iltihabi proses səbəbindən həkim şalvarı bir müddət qadağan etdiyi üçün siyasətçi kütlə arasına çıxmır.

"Onun sağlamlığı ilə bağlı problemi var. Cəmiyyətə necə çıxsın, şortla?!"- deyə vitse prezident deyib. Amma Bolsonarunun adminstrasiyası bunu təkzib edib.

Onun ruhi mənəvi bərpa üçün tənhalığa çəkildiyi deyilib.

Qeyd edək ki, Jair Bolsonaru prezident seçkilərində məğlub olub, səlahiyyəti yanvarın 1-də bitir.







# "Ön sırada əyləşirdi"

### Müəllimi Ərdoğandan danışdı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müəllimi olmuş Müzəkka Gürbüz şagirdi haqqında xoş sözlər deyib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, İHA Türkiyədə qeyd olunan Müəllim Günündə cümhurbaşqanının 92 yaşlı müəllimi ilə görüşüb və ondan şagird Rəcəb Ərdoğan haqqında danışmasını xahiş edib.**

> "Ağıllı idi, sakitcə dərsi dinləyirdi, sual verəndə cavablandırırdı"

Müzəkka Gürbüz hazırda Qocaelinin Qartəpə məhəlləsində yaşayır. M.Gürbüz 1930-cu ildə Bolqarıstanın Ruscuk şəhərində dünyaya gəlib. O zamanlar Bolqarıstanda Osmanlı ənənələri hələ də geniş şəkildə mövcud olduğu üçün M.Gürbüz orta təhsilini Osmanlı dilində alıb. Orta məktəbi bitirdikdən sonra Türkiyəyə gələrək 1950-ci illərdə İstanbul İmam Xətib Liseyində təhsil alıb və liseyin ilk məzunlarından olub. Ali təhsilini yüksək İslam İnstitutunda davam etdirib. Məzun olduqdan sonra İstanbul İmam Xətib Liseyində müəllimlik fəaliyyətinə başlayıb. Bir çox istedadlı tələbə yetişdirib.

Müəllimin tələbələrindən biri də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Cümhurbaşqanının məktəb illərini xatırlayan M.Gürbüz Rəcəb Tayyib Ərdoğanı tərifləyib: "Çox tərbiyəli, sakit, sözəbaxan, intizamlı şagird idi. Başqa uşaqlar kimi yaramazlıq etməzdi. Ön sırada əyləşirdi, dərsi dinləyirdi, sual veriləndə cavablandırırdı. Çox yaxşı uşaq idi. Şagirdlər arasında hər cür uşaq olur. Yerində otura bilməyənlər, "qaynayanlar". O isə ağıllı idi, sakitcə dərsi dinləyərdi. Bu gün başımız üstündə olduğu üçün duaçıyıq. Allah qorusun! O, məmləkətimiz üçün bir qürurdur. Hər ölkəyə nəsib olmaz beləsi. Ölkəmizi Allah düşmənlərin şərindən qorusun. Allah millətimizin, ölkəmizin, cümhurbaşqanımızın köməyi olsun! O, bu vəzifəyə layiqdir".



**Məlahət Rzayeva**



# 25 milyonluq nəhəng anlaşma

### Argentina-Səudiyyə Ərəbistanı matçından əvvəl mübahisə yaranıb

**Qətərdə keçirilən dünya çempionatının ən böyük sürprizi Argentina-Səudiyyə Ərəbistanı matçında olub. Messinin vurduğu qolla 1:0 önə keçən Argentina sonda Səudiyyə Ərəbistanına 2:1 hesabı ilə uduzub. Buna baxmayaraq Messi ilə Səudiyyə Ərəbistanı rəsmiləri arasında razılaşma matçdan daha çox səs-küy yaradıb. Mübahisəli razılaşma Avropa mətbuatında geniş işıqlandırılıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Argentinanın 36 oyunluq məğlubiyyətsizlik seriyası Səudiyyə Ərəbistanı ilə oyunda sona çatıb. Argentina matçda məğlub olmasaydı, məğlubiyyətsizlik seriyasını 37 oyuna çatdıracaq və İtaliya rekorduna şərik olacaqdı. Məlumatlara görə, Səudiyyə Ərəbistanına qarşı 36 oyunluq məğlubiyyətsizlik seriyası sona çatan Argentina, 1930-cu ildən bəri ilk dəfə ilk yarını bağladığı Dünya Kuboku matçında məğlub olub.

Argentinanın ulduzu Lionel Messi matçdan sonra açıqlamalar verib:

"Kimisə günahlandırmaq çox çətindir. Biz belə başlamaq fikrində deyildik. Bunun bəzi səbəbləri var. İndi qarşıda duran çağırışlara hazırlaşmalıyıq. Bundan sonra qalib gəlmək öz əlimizdədir. Bizim heç bir bəhanəmiz yoxdur. Biz hər zamankından daha çox birləşməliyik. Bu qrup çox çətindir və bunu hamı bu gün anladı. Yaşamadığımız bir vəziyyətdəyik. İndi əsl birliyimizi göstərmək vaxtıdır.

Səudiyyə Ərəbistanının çox yaxşı oyunçuları var, onlar topu sürətli hərəkət etdirirlər və çox yaxşı oyundankənar taktikaları var. Bunun üzərində işləyirdik, lakin matça alınmadı. Əsasən hansı komanda olduğumuzu xatırlamalıyıq. Bu oyunu unudub növbəti oyunları düşünək".

"The Athletic" nəşri Messi ilə Səudiyyə Ərəbistanı arasında "Vision 2030" adı altında sponsorluq müqaviləsi imzalandığını da açıqlayıb. Xəbərdə Yunanıstan, Misir və Səudiyyə Ərəbistanı ilə ortaq şəkildə 2030-cu ildə keçiriləcək Dünya Çempionatının təşkili üçün FİFA-ya rəsmi müraciət edəcəyi bildirilib.

Xəbərdə Messinin 2030-cu il Dünya Çempionatı səfirliyi üçün deyil, Səudiyyə Ərəbistanında turizmin inkişafı üçün müqavilə bağladığı vurğulanıb. Lakin Səudiyyə Ərəbistanı rəhbərliyi Dünya Çempionatı üçün müraciət etdikdən sonra Lionel Messiyə yeni təklif vermək və kubokun səfiri olmaq istədikləri bildirilib.

"The Athletic"dəki xəbərin təfərrüatında Səudiyyə Ərəbistanından Kristian Ronaldoya turizm səfiri olmaq üçün illik 5 milyon sterlinq təklif edildiyi, lakin Ronaldonun bu təklifi geri çevirdiyi bildirilib. Məlumata görə, Messinin Ronaldodan 5 dəfə çox illik maaş istədiyi vurğulanıb. "Daily Mail", Messi ilə Səudiyyə Ərəbistanı arasındakı müqavilənin 25 milyon funt-sterlinq dəyərində olduğunu iddia edib.

*(davamı səh.7)*

## Ziyafətdə tacları ilə diqqət çəkdilər

### Keyt Middlton Şahzadə kimi ilk dəfə tədbirdə iştirak edib



**Keyt Middlton Kraliça II Elizabetin ölümündən sonra Şahzadə kimi ilk dəfə tədbirdə iştirak edib.**

Axşam.az xəbər verir ki, Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa Böyük Britaniyaya dövlət səfərinə gəlib. Dünən axşam Bukinqem sarayında onun şərəfinə ziyafət təşkil olunub. Gecədə kral ailəsinin üzvləri - Kral III Çarlz, Kraliça-konsort Kamilla, Şahzadə Uilyam və Keyt Middlton, Şahzadə Edvard və Uesseks qrafinyası Sofi də iştirak edib.

Bu, Keytin iştirak etdiyi ilk dövlət qəbulu olub. O, gecədə Çarlzla evli olarkən mərhum Şahzadə Dianaya 1982-ci ildə II Elizabet tərəfindən verilən "Eşq düyünü" adlı tacı taxıb.

Bundan başqa ziyafətdə Kamilla da tacı ilə diqqət çəkib. O, bu tip gecələrdə II Elizabetin tez-tez taxdığı mavi daşlı tacdan istifadə edib.

## Belluççinin 18 yaşlı qızı gözəlliyi ilə heyran etdi

### Kassel gələn qışın əsas tendensiyaları haqqında məqalənin qəhrəmanı olub



**Monika Belluççinin qızı Deva Kassel ilk dəfə Fransanın "Vogue" jurnalı üçün poza verib.**

Oxu.az xəbər verir ki, model çəkilişdən olan görüntüləri sosial şəbəkələrin abunəçiləri ilə paylaşıb.

18 yaşlı Kassel gələn qışın əsas tendensiyaları haqqında məqalənin qəhrəmanı olub. İstedadlı model çəkilişdən bir neçə kadr paylaşaraq abunəçilərə cari qış görünüşünü nümayiş etdirib. Birinci fotoda Deva italyan dəb evi "Missoni"nin üslubunda üfüqi çoxrəngli zolaqlı trikotaj paltarda, ikincidə isə dekolteli kiçik qara paltarda və hündür dəri çəkmələrdə poza verib.

Qeyd edək ki, gənc modelin atası məşhur fransız aktyor Vinsant Kasseldir.

Sirroz olmaq üçün nə qədər içməlisən? - Professor Musa Qəniyev sirri açdı

## 550 milyon yaşı var

### Dünyanın ən qədim yeməyinin izləri tapılıb



**Türkiyənin Tokat bölgəsində tropik iqlim qurşağına aid 41,5 milyon illik ağac qalıqları tapılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 550 milyon ildən çox əvvəl yaşamış dünyanın ən qədim heyvanlarının qidalanma vərdişləri beynəlxalq tədqiqatçılar qrupu tərəfindən üzə çıxıb.

Elm adamları, 538,8 milyon və ya 635 milyon il əvvəl mövcud olmuş Ediacaran Biota canlı formasının qədim fosillərini təhlil edərək, onların heyvanlar tərəfindən istehlak edilən qidaya dair ən erkən dəlillər olduğunu söyləyirlər.

Kimberella kimi tanınan şlaka bənzəyən canlının fosillərində onun okean dibində yosun və bakteriyalarla qidalandığını göstərən birləşmələr olub.

Bu, tam doyurucu bir yemək olmasa da, heyvanın ağzı və bağırsağı olduğunu göstərir və bəzi müasir onurğasızlar kimi qidaları həzm etdiyinə işarədir.

Tədqiqatçılar hərəkət edə bilən simmetrik məxluq olan Kimberellanın öz dövrü üçün inkişaf etmiş bir heyvan olduğunu qeyd edirlər.

Başqa bir heyvan növü olan Dickinsonianın fosillərini araşdıran qrup, bu ikinci canlının daha az inkişaf etdiyini, ağzı və bağırsağının olmadığını müəyyən edib.

**Turan**

## Rzadan Hadisəyə

### "Məni də, özünü də bitirdin"



**Xəbər verdiyimiz kimi, Cənubi azərbaycanlı iş adamı Rza Zarrabın Türkiyəli müğənni Ebru Gündeşlə evli olduğu müddətdə Hadisə ilə də münasibətdə olduğu iddia edilib.**

Axşam.az xəbər verir ki, şayiələrin ardından Hadisə yayım qadağası gətirərək qarşı tərəfi məhkəməyə verəcəyini açıqlamışdı. Həmin ərəfədə Hadisə ilə Ameriakda olan iş adamı arasında keçən vatsap yazışmaları da sənədə əlavə edilib. Belə ki, yazışmalarda Rzanını Hadisəyə "Məni də bitirdin, özünü də" deyə, yazdığı görünüb. Hadisə isə cavabında "Səninlə yaşadıqlarıma görə, əsla peşman deyiləm. Kaanı razı salmaq üçün etdim. Günahkar göstərildim və bunu etmək məcburiyyətində qaldım. Xahiş edirəm, üstümə gəlmə" deyə, yazıb.

Bundan başqa, məhkəməyə təqdim olunan sənədlərin arasında Hadisə ilə Rzanın Amerikada, sahildə əl-ələ gəzərkən görüntüləndikləri fotonun da yer aldığı iddia edilib.

Qeyd edək ki, iki il əvvəl Hadisənin adı R.Zarrabla hallanıb. Hətta Hadisənin keçmiş sevgilisi aktyor Kaan Yıldırım ifaçıdan məhz buna görə ayrıldığını bildirib. Həmin ərəfələrdə iş adamı ilə müğənni Ebru Gündeş yeni boşanmışdı və o, bu münasibət haqqında Kaana xəbər vermişdi. Hətta bu xəbərdən sonra Hadisə Ebru ilə birlikdə münsif kürsüsündə oturduğu "O səs Türkiyə"dən ayrılıb.

Bu ilin aprelində ailə qurduğu iş adamı Mehmet Dinçerlerdən 4 ay sonra boşanan Hadisənin yenidən Rza ilə münasibətdə olduğu iddia edilib.